Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

28
AVQUST
2019-cu il
№ 150 (4048)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# RƏSMİ BAKI TEHRANI İRƏVANDAN İMTİNA VƏZİYYƏTİNƏ GƏTİRDİ...

■ səh. 8 ■

Rusiya dövlət elitasının Mehriban Əliyevaya böyük diqqətinin mahiyyəti...
■ səh. 3 ■

Dövlət başçısı kimi yox, jurnalist kimi danışan Paşinyan Qarabağ müharibəsini anbaan yaxınlaşdırır
■ səh. 9 ■

KXCP-də qadınla bağlı olay...
■ səh. 4 ■

Dünyada qızışan "valyuta müharibəsi" manata inamı artırır
■ səh. 6 ■

Bakıda çoxmərtəbəli binalar tikintisində ağlasığmaz normasızlıq - binalar arasında məsafə hətta 40-50 santimetr...
■ səh. 11 ■

Quba meşələri turistlər tərəfindən zibilxanaya çevrilir...
■ səh. 11 ■

Bakı muzeylərini kimlər ziyarət edir...
■ səh. 14 ■

Azərbaycanda erkən yaşda fahişəliyə cəlb edilənlərin sayı artır
■ səh. 15 ■




## Sosial şəbəkələrdə radikallıq edən müxalifət «trol»larının əsas xüsusiyyətləri - intellektsizlik, təhqir, şüarçılıq...

■ səh. 4 ■





Erməni iddialarının dünya məhkəmələrində rədd edilməsi prosesə çevrilir - Paris, ardınca Kaliforniya...
■ səh. 5 ■

Xarici kübar qadınların «yaşam qoçu» saxlamaq adəti Bakıda da yayılır...
■ səh. 12 ■

«Masazır Park» şirkətində fəhlə istismarı - 35 fəhlənin pulu niyə verilmir...
■ səh. 10 ■

■ səh. 2 ■
Azərbaycan XİN Mnatsakanyanı İrəvanda daxili auditoriya üçün dediklərinə görə peşman etdi



■ səh. 3 ■
25 Avropa deputatı ermənilərin "pul tələsində" - qondarma "DQR"də nə var....



■ səh. 5 ■
Uzun müddət Rusiyada Azərbaycan hakimiyyətini söydü, deportasiya təhlükəsi ilə üzləşib...



■ səh. 13 ■
Azərbaycan universitetləri xarici ölkələrdə niyə filiallar açmır...



■ səh. 15 ■
Azərbaycanlı kişilər də estetik əməliyyatlar "xəstəliyinə" tutulur...



## BŞBPİ Füzuli rayon icra başçısının oğlunun vəzifəyə təyin olunmasının yalan olduğunu açıqladı

**Bakı şəhər Baş Polis İdarəsi Füzuli rayon İcra Hakimiyyəti başçısının oğlunun polis orqanlarında vəzifəyə təyin olunması ilə bağlı mətbuatda yayılan məlumatlara münasibət bildirib.**



İdarənin mətbuat xidmətinin rəhbəri, polis mayoru Elşad Hacıyev "Trend"ə açıqlamasında deyib:

"Mətbuatda Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyevin oğlunun Xətai RPİ 34-cü Polis Şöbəsinə rəis müavini vəzifəsinə təyin olunması ilə bağlı yayılan məlumatlar həqiqəti əks etdirmir. Həmin şöbəyə hər hansı təyinat olmayıb".

## Baku.ws saytının redaktoru Zülfüqar Xeyirxəbərovun döyülməsinə polis və prokurorluq dərhal reaksiya verdi



**Bakı şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğunun birgə məlumatına görə, avqustun 25-də saat 10 radələrində Bakı şəhər sakini Zülfüqar Xeyirxəbərov idarə etdiyi "Mercedes" markalı 99-BC-360 dövlət qeydiyyat nişanlı avtomobillə Mərdəkan-Bakı avtomobil yolu ilə hərəkətdə olarkən Binə qəsəbəsi ərazisində "Daewoo" markalı 99-AD-149 dövlət qeydiyyat nişanlı avtomobilin sürücüsü tərəfindən heç bir əsaslı səbəb olmadan saxladılaraq mübahisə etməklə ona bədən xəsarətləri yetirilməsi faktı ilə əlaqədar Xəzər Rayon Polis İdarəsinin İstintaq şöbəsində Cinayət Məcəlləsinin 221.1-ci (xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb.**

İş üzrə məhkəmə-tibbi ekspertizası təyin edilib, şahidlər dindirilib və digər zəruri istintaq hərəkətləri həyata keçirilib.

Aparılmış təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində 99-AD-149 dövlət qeydiyyat nişanlı avtomobilin sürücüsünün 1993-cü il təvəllüdlü Seymur Mustafazadə olduğu aşkar edilib.

İstintaqla Seymur Mustafazadənin ictimai qaydanı kobud surətdə pozmaqla şəxslər üzərində zor tətbiq olunması ilə müşayiət olunan xuliqanlıq hərəkətlərinə yol verərək Z.Xeyirxəbərova bədən xəsarətləri yetirməsinə əsaslı şübhələr müəyyən edilib.

S.Mustafazadə şübhəli şəxs qismində tutularaq müdafiəçi ilə təmin edilməklə dindirilib.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Braziliya böyük 7-lərin 20 milyonluq yardımından Makronun niyyətinə görə imtina etdi...



**Braziliya G-7 ölkələrinin Amazon meşələrində təxminən üç həftədir davam edən yanğınları söndürmək üçün ayırdığı 20 milyon avroluq yardımı rədd edib.**

Baki-xeber.com xəbər verir ki, bu barədə Braziliya Prezidenti Jair Bolsonaro açıqlama verib. Bolsonaro bunun təşəbbüskarı olan Fransa prezidenti Emmanuel Makronun bu cür yardım fikirlərinin arxasında fərqli niyyətlərin olduğunu iddia edib.

# Azərbaycan XİN Mnatsakanyanı İrəvanda daxili auditoriya üçün dediklərinə görə peşman etdi

*"Dağlıq Qarabağ xalqı" anlayışı yoxdur, erməni və azərbaycanlı icmaları var...*

**Avqustun 27-də Ermənistan Respublikasının Xarici işlər naziri bu ölkə XİN-in mərkəzi aparatının, habelə diplomatik və konsulluq nümayəndəliklərinin rəhbərləri qarşısında çıxış edərək, Azərbaycanın ünvanına tamamilə reallıqdan uzaq və danışıqların mahiyyətinə uyğun olmayan iddialar səsləndirdi.**



Baki-xeber.com xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin şərhində deyilir.

Nazirlik bununla əlaqədar bir daha vurğulayır ki, Dağlıq Qarabağ Azərbaycan Respublikasının ayrılmaz hissəsi olub, hazırda onun ayrılmaz hissəsidir və bu gələcəkdə də belə olacaqdır:

"Bütün dünya birliyi bu həqiqəti tanıyır və birmənalı olaraq Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalını pisləyir. "Dağlıq Qarabağ xalqı" anlayışı yoxdur, Azərbaycanın bu bölgəsinin erməni və azərbaycanlı icmaları vardır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq səviyyədə qəbul edilmiş model, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT, ATƏT və digər beynəlxalq təşkilatların qərarlarına, ilk növbədə, BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsinə əsaslanır. Dinc nizamlanma çərçivəsində konkret addımlar isə ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən irəli sürülüb və bu ilin 9 mart tarixli son bəyanatları da daxil olmaqla həmsədrlər tərəfindən dəfələrlə səsləndirilib.

Beynəlxalq miqyasda tanınmış multikultural cəmiyyətə sahib olan, çoxlu sayda müxtəlif etnik qrupların vətəni olan Azərbaycan dövləti, bütün ərazi azərbaycanlı əhalini halhazırda bu ölkənin yerləşdiyi ata-baba torpaqlarından qovan və üstəlik Azərbaycanın işğal olunmuş ərazilərində ən ifrat təzahürü Xocalı faciəsi olan dəhşətli etnik təmizləmə həyata keçirən monoetnik Ermənistanla heç bir müqayisəyə gələ bilməz.

Ermənistan XİN başçısının vətəndaşların öz iradələrini azad ifadə etməsini nəzərdə tutan xalqların öz müqəddəratını təyinetmə hüququna istinad edərək təmsil etdiyi ölkənin təcavüzkar niyyətlərinə hər hansı şəkildə haqq qazandırmaq cəhdləri, nə də beynəlxalq hüquqa, nə də sağlam məntiqə uyğun gəlir. Həqiqətən, hər hansı bir ərazinin əhalisinin bir hissəsinin hüquqlarını bu ərazinin əhalisinin digər hissəsinin hüquqlarını tamamilə pozaraq həyata keçirmək mümkün deyil.

Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı Azərbaycanın hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı icmasının hüquqları kütləvi şəkildə pozulub. Yalnız Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Azərbaycan icmasının öz doğma yerlərinə təhlükəsiz qayıdışı və orada ləyaqətli yaşayışı ilə təməl hüquqlarının bərpasından sonra bu bölgənin sakinlərinin özünüidarəetmə hüquqlarının həyata keçirilməsi formaları üzrə konkret müzakirələr aparmaq mümkün olacaq.

Ermənistan Xarici İşlər Nazirinin daxili auditoriyaya yönəlmiş son açıqlaması, Z.Mnatsakanyanın hər zaman çox canfəşanlıqla guya istədiyi, münaqişənin sülh yolu ilə həlli əvəzinə, onun kəskinləşməsi kimi çox təhlükəli tendensiyaya gətirib çıxarır.

Ermənistan artıq müəyyən etməlidir, o sülh istəyir, yoxsa vəziyyətin gərginləşməsini?! Belə bir təsəvvür formalaşır ki, hazırkı Ermənistan rəhbərliyi münaqişənin həll olunmasına deyil, bilərəkdən vəziyyətin gərginləşməsinə üstünlük verir. Təəssüflə qeyd olunmalıdır ki, bu gün rəsmi Yerevan reallıqlara əsaslanan yanaşmadan deyil, ilhaqçı mövqedən çıxış edir. Lakin istənilən halda aydındır ki, Azərbaycan heç vaxt işğala əsaslanan status-quo vəziyyəti ilə barışmayacaq. Bizim səbrimiz tükənməz deyil".

# Bakı polislərinin vətəndaşlarla davranışı barədə daha bir qərəzli xəbərin "axırına çıxıldı"

**Bakı Şəhər Baş Polis İdarəsi teleaparıcı Tarix Əliyevin (Tolik) polis haqqında iddialarına cavab verib.**

İdarənin mətbuat xidmətinin rəhbəri, polis mayoru Elşad Hacıyev "Trend"ə açıqlamasında bildirib ki, sosial şəbəkələrdə, bəzi internet saytlarında teleaparıcı Tarix Əliyev "Binəqədi rayon icra hakimiyyəti tərəfindən vətəndaşın mənzilinə göndərilən polislərin onlarla kobud rəftar etməsi" ilə bağlı iddialar səsləndirib. Elşad Hacıyev bildirib ki, videomaterial araşdırılıb, orada əks olunan kadrlarda polis əməkdaşlarının iştirakı müşahidə olunmur: "Polisə qarşı irəli sürülən ittihamlar və səslənən iddialar yalandır, əsassızdır".




**E.Hacıyev əlavə edib ki, qeyd edilənləri nəzərə alaraq, polisin adı hallanan məlumatları hazırlayarkən paytaxt üzrə Bakı Şəhər Baş Polis İdarəsi ilə dəqiqləşdirilmə aparılmaqla yayımının təmin olunması jurnalistlərə tövsiyə edilir.**

Bu davranış tək polisin yox, eyni zamanda cəmiyyətin maraqlarına xidmət edir.

# Ruhani dedi ki, sanksiyalar davam etdikcə, müsbət dəyişiklik olmayacaq

**ABŞ-ın İrana qarşı sanksiyaları davam etdikcə, regionda heç bir müsbət dəyişiklik olmayacaq.**

"Trend"in məlumatına görə, bunu İran Prezidenti Həsən Ruhani Dövlət Həftəsi (24-30 avqust) münasibətilə bir sıra layihələrin açılışı ilə əlaqədar təşkil olunan tədbirdə deyib.

H.Ruhaninin sözlərinə görə, müsbət dəyişikliklərin açarı Vaşinqtonun əlindədir: "Qərb ölkələri regionda əlavə təhlükəsizlik və region ölkələri ilə yaxşı əlaqələr qurmaq istəyirsə, addımlar atmalıdırlar.

**İranın hərbi doktrinası normal silahlara əsaslanır və nüvə silahı, kimyəvi silah, kütləvi qırğın silahlarına yer yoxdur".**

**Avqustun 26-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva doğum gününü qeyd etdi. 55 yaşı münasibətilə onun ünvanına çoxlu sayda təbriklərin göndərildiyinin şahidi olduq. Sosial mediada çoxlu sayda sadə azərbaycanlının xanım Əliyevaya səmimi təbriklərini görmək mümkün idi.**

# Rusiya dövlət elitasının Mehriban Əliyevaya böyük diqqətinin mahiyyəti...



Qonşu Rusiyanın dövlət elitasının əhəmiyyətli hissəsinin də ayrı-ayrılıqda bu təbrikə qoşulduğu özünü göstərdi. Mehriban xanım Əliyevanı təbrik edən Rusiya rəsmiləri arasında Rusiya prezidenti Vladimir Putinin, Rusiya Hökumətinin sədri Dmitri Medvedyevin, Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonun adlarına rast gəlinirdi. Təbrikə qoşulanların sırasında Rusiyanın baş naziri Dmitriy Medvedyevin həyat yoldaşı da vardı. Rusiya dövlət və siyasi elitasının Mehriban xanımın şəxsinə verdiyi bu önəm həm də Azərbaycana bəslənən münasibətin təzahürüdür. Çünki Mehriban xanım yalnız ölkənin birinci ledisi deyil, həm də vəzifə ardıcıllığına görə Prezidentdən sonra ikinci şəxs sayılır. Maraqldır ki, biz analoji münasibətin digər dövlətlərin rəsmilərinə bəslendiyini görmürük. Məsələn, Nikol Paşinyan Ermənistanda Baş nazir seçiləndən sonra Rusiya rəhbərliyi uzun müddət ona təbrik məktubu ünvanlamadı. Paşinyan belə məzmunda təbriki yalnız bir neçə dəfə Moskvaya ayaq döyəndən sonra ala bildi. Rusiya dövlət elitasının Mehriban xanıma göstərdiyi bu diqqət nəyin təzahürü sayıla bilər?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu diqqəti yüksək dəyərləndirir: "Təbriklərin mətnindən də görünür ki, Mehriban xanıma ölkə başçısının xanımı kimi deyil, dövlət xadimi kimi xitab edilir. Bu, Rusiyanın Azərbaycan dövlətinə, onun rəhbərliyinə bəslədiyi dost münasibətin təzahürü olmaqla yanaşı, həm də Mehriban xanımın fəaliyyəti və şəxsi keyfiyyətlərinə bağlı olan məsələdi. Müsəlman ölkəsində dünyəvi qadın lider nümunəsi və həmçinin müsəlman ölkəsində dini milli dəyərlərə sədaqətli, sülhpərvər bir dövlət xadimi olaraq Mehriban xanımın bəşəriyyətə çox faydası dəyib. Mehriban Əliyeva, həmçinin, qlobal səviyyədə dinlərarası mədəniyyət sahəsinin inkşafına töhfə vermiş dövlət xadimidir, qaynar ocaqlarda sülhün və mədəniyyətin bərqərar olması istiqamətində maarifçilik təhsil layihələrini həyata keçirən xanım siyasətçidir.

Əfqanıstan, Pakistan , Somali və s. kimi qaynar ocaqlarda yerli müsəlman cəmiyyətlərin inkişfına səbəb olacaq qız uşaqlarının təhsili layihələrini həyata keçirmiş, məktəb açmış bir dövlət xadimdir. Rusiyanın dövlət rəsmilərinin ard-arda təbrikləri şərtləndirən əsas məqam vətəndaşlarının çoxunun müsəlman dinindən olması və bu müsəlman çoxluğun, xüsusilə ölkənin cənubunda müsəlman çoxluğun rəğbət bəslədiyi bir xadim kimi nüfuz sahibi olması şərtləndirir.

Bilirsiniz ki, dini bayramlar ərəfəsi Rusiya məscidlərində Heydər Əliyev Fondunun aktivləri mütərəqqi islamın inkişafı layihələrinin həyata keçirilməsi kimi bir fəaliyyətlə məşğul olurlar. Digər tərəfdən, Mehriban xanım Əliyeva həm də xristian məbəd və kilsələrinin təmirinə böyük dəstək verib. Bu da müsəlman və xanım olan dövlət xadiminin dinlərarası sülhə verdiyi töhfənin göstəricisidir".

Politoloqun sözlərinə görə, təbiidir ki, biz Rusiyadan bu cür diqqəti Ermənistana və onun rəhbərlərinə münasibətdə görmürük: "Çünki onlarda deyilən standartlara cavab verən dövlət xadimi yoxdur. Rusiya heç onların birinci şəxsinə belə diqqət göstərməyib. Bütün bunlar göstərir ki, Azərbaycan bir ölkə olaraq öz çəkisini qoruyub saxlamağı bacarır. Bu həm ölkəmizə , həm də dövlət rəhbərlərimizə bəslənən hörmət və ehtiramda özünü aydın göstərir".

*Məhəmmədəli*
***QƏRİBLİ***

**Avropa Parlamentinin Almaniyadan olan deputatı Martin Zonneborn Qarabağa gəlib. Separatçı qurumun rəsmi şəxsləri ilə görüşən siyasətçi səfərinin əsas məqsədinin regionda turizmin inkişafı olduğunu deyib. Onun 25 nəfərdən ibarət nümayəndə heyəti ilə Qarabağa səfər etdiyi açıqlanıb.**

# 25 Avropa deputatı ermənilərin "pul tələsində" - qondarma "DQR"də nə var....

## *Ramil Hüseynov: "Bu, Avroparlamentdə təmsil olunan bəzi deputatların iç üzünü ortaya qoydu"*



Sözügedən nümayəndə heyəti işğal altında olan ərazilərə Daşnaksutyun Avropa "Hay Dat" komissiyasının rəhbəri Qaspar Karapetyan və ofisin direkoru Heğine Evinyanın müşayiəti ilə gəlib. Qanunsuz səfər zamanı deputat Martin Zonneborun bir sıra görüşlər keçiridiyi bildirilir.

Həyasızlığın dərəcəsinə bax ki, Zoneborn öz Facebook səhifəsində istehza ilə qanunsuz səfər edənlərin "qara siyahıya" salınması məsələsinə toxunub. O qeyd edib ki, gələn il turistlərin böyük bir qrupu ilə "Artsaxa" getməyi planlaşdırır və bununla da siyahıdakı sayı 1000-ə çatdırmağı vəd edir.

Qeyd edək ki, Zonneborn işğal altında olan ərazilərimizə 2018-ci ilin 29 avqust tarixində də gəlib. Onun arvadı milliyyətcə ermənidir. Azərbaycanın qanunvericiliyə əsasən, işğal altında olan Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfər edən şəxslər Xarici İşlər Nazirliyinin arzuolunmaz şəxslər siyahısına daxil edilir.

Görünən odur ki, Avropa Parlamentinin bəzi deputatları erməni lobbisinin təsir dairəsinə düşərək açıq formada beynəlxalq hüququ pozurlar. Halbuki, Martin Zonnebornun təmsil etdiyi Almaniya Azərbaycanın ərazi bütövlüyünü tanıyır.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, bu onu göstərir ki, bəzi avropalı deputatlar erməni lobbisinin təsiri altındadır: "Düzdür, Avropa Parlamentinin hansısa deputatının qanunsuz olaraq Dağlıq Qarabağa səfər etməsi Avropa İttifaqının, yaxud da qurumda təmsil olunan hansısa ölkənin rəsmi mövqeyini ifadə etmir. Aİ üzvü olan ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar. Ancaq məsələ ondadır ki, erməni tərəfi bu cür qnunsuz səfərlərdən maksimum təbliğat məqsədi üçün istifadə edir. Qondarma qurumun bu yolla təbliğ edilməsi ilə bağlı kampaniya aparırlar. Bu nə birincidir, nə də sonuncu. Bundan əvvəl də işğal altında olan Qarabağa qanunsuz səfərlər olub. Erməni təəssübkeşliyindən çıxış edən bəzi avropalı deputatlar yaxşı bilir ki, separatçı qurumda nə turizm inkişaf edər, nə də digər sahələr. Sadəcə, erməni lobbisindən bəslendikləri üçün belə qanunsuzluqlara gedirlər.

*"Pul qarşılığında onlar nəyə desən gedər"*

Bu həm də Avroparlamentdə təmsil olunan bəzi deputatların iç üzünü ortaya qoydu. Yəni pul qarşılığında onlar nəyə desən gedər. Fikrimcə, Azərbaycan tərəfi bununla bağlı Avropa Parlamentinə nota verməlidir".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, özünü virtual dünyanın "qəhrəmanı" hesab edən radikal müxalifət təmsilçiləri Azərbaycan dövləti əleyhinə anti-təbliğat kampaniyası aparmaqda davam edirlər. Sosial şəbəkələrdə baş alıb gedən hərcmərclik o yerə gəlib çatıb ki, radikallar Azərbaycan xalqına xas olmayan ifadələr işlədirlər.**

*"Bu adamların təfəkkürləri sadəcə olaraq quruyub və qalıb keçmişdə..."*

# Sosial şəbəkələrdə radikallıq edən müxalifət "trol"larının əsas xüsusiyyətləri - intellektsizlik, təhqir, şüarçılıq...

***Azər Həsrət:** "Radikalların sosial şəbəkələrdəki davranışları onların intellektdən uzaq olduqlarını göstərir"*




Bu da milli dəyərlərimizə kölgə salır. Sosial şəbəkələr informasiya vasitəsi kimi müasir texnologiyanın yaratdığı bir şəbəkədir. Bu vasitədən normal insanların istifadə etməsi hər bir kəsin intellektinin inkişafına, informasiyanın yayılmasına və digər mühüm əhəmiyyət kəsb edən proseslərin getməsinə xidmət edir. Adətən mübarizəni sivil qaydada apararlar. Ancaq bu gün ölkədə sivil qaydada mübarizə apara biləcək radikal müxalifət yoxdur.

Müşahidələr göstərir ki, radikal, söyüşcül müxalifətin sosial şəbəkənin imkanlarından geniş müstəvidə istifadə etməsinə rəğmən, onların heç biri yüksək intellektual səviyyə nümayiş etdirə bilmir. Əvvəlki kimi qaraguruhçu mövqedən çıxış edərək söyüş söyməklə, istənilən məsələyə qərəzli yanaşmaqla, ortaya tutarlı arqument qoymamaqla özlərini ifadə edirlər. Ötən 26 ildə dəyişmədiklərini açıq formada ortaya qoyurlar. Bir nəfər belə olsun radikal müxalifət nümayəndəsi göstərmək olmaz ki, sosial şəbəkələrin timsalında yüksək intellektual səviyyə, geniş bilik dairəsi ortaya qoysun.

Maraqlıdır, bütün bunlar nəyin göstəricisidir?

Məsələyə münasibət bildirən media eksperti Azər Həsrət bunu bir sıra faktorlarla əlaqələndirdi: "Radikalların sosial şəbəkələrdəki davranışları onların intellektdən uzaq olduqlarını göstərir. Bu adamlar 30 il öncə hansı təfəkkürün sahibi idilərsə, bu gün də o düşüncə ilə hərəkət edirlər. Otuz il əvvəl hardasa bunu başa düşmək olardı. Azərbaycan müstəqillik əldə edirdi, SSRİ sistemindən qurtulurduq, insanların təcrübəsi yox idi, bolşevizum təsirləri var idi. O baxımdan onları başa düşmək olardı. Ancaq aradan bu qədər müddət keçdikdən sonra da radikalların həmin təfəkkürlə hərəkət etməsi normal deyil. Sosial şəbəkələrdə söyüş söyməklə, qərəzli danışmaqla özlərini ifadə edirlər. Bu ondan xəbər verir ki, radikalların inkişaf potensialı, zamanla ayaqlaşmaq imkanları yoxdur. Bu adamların təfəkkürləri sadəcə olaraq quruyub və qalıb keçmişdə. İndi də həmin düşüncə ilə də hərəkət edirlər. Ona görə də radikalların heç bir uğuru haqqında danışa bilmirik. Yəni onlar siyasi səhnədə hər hansı bir uğur qazana bilmirlər, ətraflarına adam yığa bilmirlər. Xalqın böyük əksəriyyəti ümumiyyətlə onlarla məsafəli davranır.

Hər keçən gün radikallar ətrafındakı adamları itirirlər. Niyə? Ona görə ki, az-çox siyasi müxalifətçilik etmək istəyən, normal siyasi mübarizə aparmaq istəyən adamlar bunları müxalifətçi sanıb yanlarına gəlir, onlarla birlikdə hərəkət etmək istəyir. Ancaq görürlər ki, bunlarda intellektdən əsər-əlamət belə yoxdur. Ona görə də onların ardınca getmirlər. Bu onu göstərir ki, radikalların heç bir potensialı yoxdur".

***Vidadi ORDAHALLI***

**Klassik Xalq Cəbhəsi Partiyasında ciddi qalmaqal yaşanır. Bununla bağlı ilkin məlumatı sözügedən partiyanın üzvü Oqtay Gülalıyev verib. O qeyd edib ki, KXCP- nin avqustun 26-sında keçirilən Ali Məclisin sessiyasına partiya sədrinin gətirdiyi adamlar Ali Məclis üzvü Nisəxanım Vəliyevanı təhqir ediblər, vurmaq üçün ona hücum çəkiblər:**

# KXCP-də qadınla bağlı olay...

"Mirəlioğlu isə tərəfdarlarının cəbhəçi xanıma hücümünu məmnunluqla seyr edərək susub. Sədrə və ona hücum edənlərə sözünü deyən xanım Məclisi tərk edib... Maraqlıdır ki, Nisəxanım Vəliyevanı cəzalandırmaq üçün Mirəlioğlunun Ali Məclisin sessiyasına dəvət etdiyi adamlardan biri nəinki Ali Məclisin, heç partiyanın da üzvü deyil. Xeyli vaxtdır ki, Mirəlioğlunu və KXCP- ni təhqir edərək təşkilatdan gedib. Vəliyeva xeyli vaxtdır Mirəlioğlunun faliyyətini, hakimiyyətlə əməkdaşlığını kəskin tənqid edir. Dünənki Ali Məclisdə insidentin baş verməsinin səbəbi də bu olub... Görün, Mirəlioğlu nə günə qalıb ki, onu tənqid edənlərə cavab verməyə üzü yoxdur, cəsarəti çatmır. Digər tərəfdən nə günə qalıb ki, vaxtilə onu təhqir edən adamla ittifaqa girib xanımların üstünə hücum çəkir...

Qurban Məmmədovun efirinə çıxan Mirmahmud Mirəlioğlu Azərbaycan xanımlarına müraciət edərək onları birliyə çağırır. Amma partiyasının Ali Məclisinin üzvü xanımı təhqir etdirib onu döydürmək istəyir. Mən qeyri-səmimiliyin bu həddini, zirvəsini görməmişdim. Mən Nisəxanımı müdafiə edirəm, hər kəsi də onu müdafiə etməyə çağırıram".

Yaranmış vəziyyətə aydınlıq gətirmək üçün KXCP funksionerləri ilə əlaqə saxladıq. Partiyanın funksioneri Xəzər Teyyublu bildirdi ki, hazırda istirahətdədi, Bakıda olmadığı üçün Ali Məclisin iclasına qatılmayıb: "Bu səbəbdən də heç nə deyə bilmərəm. Şahidi olmadığım hadisə ilə bağlı nəsə deməyim doğru çıxmaz".

KXCP Ali Məclisinin sözügedən toplantısında iştirak edən Ali Məclisin üzvü Firuz İbrahimov "Bakı-Xəbər"ə yayılan məlumatın həqiqət olmadığını bildirdi: "Bütün bunların arxasında bir qrup dayanır. Həmin qrupa Oqtay Gülalıyev rəhbərlik edir. Nisəxanım Vəliyevanı da salıblar öz təhsirlərinin altına. Bir nəfər də var, Elşən Əlisoy. Onu da partiyadan uzaqlaşdırmışıq. Bütün günü partiyanın əleyhinə təbliğat aparırlar. Gərək həqiqəti deyək ki, Nisəxanım Vəliyeva çox əqidəli xanım olub. Hər zaman partiyanın maraqlarını qoruyub. Bu xanımı da Oqtay Gülalıyev qoşdu özünə. Xanım partiya Ali Məclisinin üzvü ola-ola bütün günü sosial şəbəkələrdə partiya rəhbərliyini söyüb, təhqir edir. Belə olmaz axı. Sən partiyanın üzvüsənsə, özü də rəhbər qurumda təmsil olunursansa, belə hərəkətlər etməməlisən. Dəfələrlə ona xəbərdarlıq edilsə də, xeyri olmadı. Sonuncu iclasda onu heç kim döyməyib. Əksinə, o bizim üstümüzə hücum çəkib, bizi təhqir edib. Həmin anın videogörüntüləri var. Buyursun versin məhkəməyə, orda sübut edim ki, kim kimə hücum çəkib. Nisəxanım Vəliyeva bilirdi ki, onun məsələsi Ali Məclisdə müzakirə ediləcək. Şəxsən mən həmin məsələni qaldırmağa hazırlaşırdım. Bu səbəbdən də aranı qatdı ki, partiyadan xaric olunmaq məsələsi müzakirə olunmasın. Hamısı Oqtay Gülalıyevin oyunlarıdı. Oqtay Gülalıyev partiya rəhbərliyində təmsil olunurdu, ancaq qəribə mövqe tutdu. KXCP Milli Şuradan aralananda gedib oturdu Əli Kərimlinin yanında. İndi də sanki bizim yox, Əli Kərimlinin partiyasının üzvüdür. Elə bil ki, Əli Kərimlinin əlində ona qarşı hansısa kompromat var. Ona görə onun tabeliyində olan adam kimi hərəkət edir. Onun hadisə ilə bağlı təhrif edib yazdığı yazıya baxın. Aydın şəkildə görünür ki, Əli Kərimlinin planı əsasında hərəkət edir.

***Oqtay Gülalıyev:** "Ali Məclis üzvü Nisəxanım Vəliyevanı təhqir ediblər, vurmaq üçün ona hücum çəkiblər"*

***Firuz İbrahimov:** "Əli Kərimli bunların əli ilə KXCP-ni dağıtmaq istəyir"*

Əli Kərimli bunların əli ilə KXCP-ni dağıtmaq istəyir. Elə vəziyyət yaradıblar ki, partiyanın 5 rayon təşkilatının işi getmir. Gələn toplantıda mən Oqtay Gülalıyevin partiyadan qovulması məsələsini qaldırcam. Çünki belə işlərlə məşğul olan adama heç sıravi üzv kimi də KXCP-də yer yoxdu. Üzümü ona tutub deyirəm, sözü varsa, kişi kimi gəlib özü desin, qadınları öyrədib üstümüzə göndərməsin".

***Məhəmmədəli QƏRİBLİ***

# Erməni iddialarının dünya məhkəmələrində rədd edilməsi prosesə çevrilir - Paris, ardınca Kaliforniya...

**Mehman Muradlı:** *"Ən maraqlısı budur ki, bütün bu məhkəmə məğlubiyyətləri ermənilərin ərköyün bəsləndiyi Fransa kimi ölkədə və Kaliforniya kimi ştatda baş verir"*

**ABŞ-da erməni diasporu nümayəndələrinin Türkiyəyə qarşı qaldırdığı məhkəmə iddiaları onlar üçün uğursuzluqla nəticələnib. Erməni əsilli 5 Amerika vətəndaşı 1915-ci il hadisələri zamanı Osmanlı dövlətini tərk edən ailələrinin "əmlak, o cümlədən torpaq itkisi" üçün Türkiyə hökumətindən, Türkiyə Mərkəzi Bankından və Türkiyənin dövlət bankı Ziraatdan təzminat tələb edib.**



Qaris Davoyan və Hrayra Turabyanın Kaliforniya Ali Məhkəməsində qaldırdığı iddia üzrə məhkəmə 29 iyul 2010-cu ildə başlayıb. Eyni məhkəmədə daha bir proses 10 dekabr 2010-cu ildə Aleks Bakalyan, Anais Harutyunyan və Rita Mehdesyanın şikayətləri əsasında start götürüb. Doqquz illik dinləmə və araşdırmalardan sonra məhkəmə hər iki halda ermənilərin iddialarını təmin etməmək qərarına gəlib. Xüsusilə ABŞ Federal Kassasiya Məhkəməsi tarixi hadisələrə dair qərarların yalnız ekspert təhlili əsasında verilə biləcəyi barədə hökm çıxarıb.

Türk banklarının vəkilləri ilə təmsil olunan müdafiə tərəfi isə Amerika məhkəmə orqanlarının bu kimi məsələlərdə qərar vermək hüququna sahib olmadığını bildirib.

Ortada ciddi bir fakt var. Kaliforniya erməni diasporunun sıx yaşadığı və ciddi təsir imkanlarının olduğu bir ştatdır. Ermənilər bir çox özlərinə xeyir edən qərarlarını məhz həmin ştatda qəbul etdiriblər. İndi isə məhz həmin ştatın məhkəmələri erməni iddialarını rədd edir. Bu tendensiya bir müddət əvvəl Fransa məhkəmələrində start götürməyə başladı. Fransa məhkəmələri Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində yaradılan qondarma "dqr"-lə bağlı qərarlarını ləğv etdi. Əvvəlcə Serji-Pontuaz məhkəməsinin qərarı ilə Arnuvil şəhərinin qondarma Dağlıq Qarabağdakı Şeher inzibati bölgəsi ilə "Dostluq haqqında xartiya"sı ləğv edildi. Eyni qərarla Arnivul şəhəri ilə Azərbaycanın işğal altında olan Xocavənd rayonu arasında imzalanmış "dostluq xartiyası" ləğv edildi. Daha sonra Qrenobl məhkəməsi eyni xarakterli 4 "dostluq xartiyası"nı ləğv etdi. Qeyd edək ki, Fransa da erməni diasporunun ciddi təsir imkanına malik olduğu ölkədir. Buna baxmayaraq, ermənilər orda sarsıldıcı məğlubiyyətlə üzləşdilər. Həmin hadisələr Ermənistanın daxili rəyini silkələmişdi. Onlar müzakirələr zamanı Ermənistan hakimiyyətini, xüsusilə Xarici İşlər Nazirliyini ittiham edir, Azərbaycan diplomatiyası qarşısında məğlubiyyətə uğradıqlarını deyirdilər. Eyni zamanda onlar haqlı olaraq ehtiyat edirdilər ki, Fransa məhkəmələrinin qəbul etdiyi qərar digər ölkələr üçün də nümunə xarakteri daşıyacaq. ABŞ-da baş verən məhkəmə prosesi bunu təsdiqləmiş oldu. Ortada həm də başqa amil var. Artıq sübut olunur ki, ermənilər dünya miqyasında siyasi ilə yanaşı həm də hüquqi müstəvidə məğlub olmağa başlayıblar.

Hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə bildirdi ki, bu proses öz başlanğıcını Fransa ilə götürdü: "Təəssüflər olsun ki, erməni lobbisinin caynaqları məhkəmələrə də təsir etmək gücündə idi. Qeyd edək ki, bu il Fransa məhkəmələrində qəbul edilən qərarlar 2013-cü ildən sonrakı dövrdə Fransa məhkəməsinin Azərbaycanın xeyrinə çıxardığı ilk qərar idi. Həmin vaxt Azərbaycan tərəfi separatçı rejimin Dağlıq Qarabağ və ətraf yeddi rayonun işğalını legitimləşdirmək cəhdlərinə dair məsələnin həlli ilə bağlı Fransa məhkəməsinə müraciət etmişdi, ancaq təəssüflər olsun ki, obyektiv qərar ala bilmədik. Burada hüquqi məsələ ilə yanaşı ermənilərin siyasi təzyiqlərini də neytrallaşdırmaq lazım idi. Haqlı olaraq bəzi ekspertlər hesab edirdi ki, Fransa Femidasının bu ədalətli qərarı digər ölkələr üçün də presedent rolunu oynayacaq. Hətta ermənilərin özləri də bundan çox ehtiyat edirdilər. Bu da fakt. Artıq ABŞ məhkəmələri də onların iddialarını rədd etməyə başlayıb. Özü də ən maraqlısı budur ki, bütün bu məhkəmə məğlubiyyətləri ermənilərin ərköyün bəsləndiyi Fransa kimi ölkədə və Kaliforniya kimi ştatda baş verir. Tam razıyam ki, bu, ermənilərin hüquq müstəvisində də süqutunu şərtləndirir. Biz vəziyyətdən istifadə edib, ermənilərə qarşı beynəlxalq arenada məhkəmə iddialarını daha çox qaldırmalıyıq. Bunların hamısı bir-birinə bağlı olan məsələlərdi. Ümumilikdə isə bunu Azərbaycan dövlətinin xarici siyasətinin, diplomatiyasının qələbəsi saya bilərik".

*Məhəmmədəli*
***QƏRİBLİ***

# Uzun müddət Rusiyada Azərbaycan hakimiyyətini söydü, deportasiya təhlükəsi ilə üzləşib...

**Samir Adıgözəlli:** *"Azərbaycanda ona cinayət işinin açılması ilə bağlı kifayət qədər ciddi əsaslar mövcuddur"*

**"YouTube"da və digər sosial şəbəkələrdə Milli Məclis deputatlarının və dövlət xadimlərinin ünvanına xoş olmayan və hörmətsiz ifadələr işlətməklə məşhurlaşan videobloqer Elvin İsayev Sankt-Peterburqda saxlanılıb. Bu barədə məlumatı E.İsayevin vəkili Məhəmməd Həsənov verib.**



Onun sözlərinə görə, avqustun 25-də E.İsayevə qarşı Rusiya İnzibati Xətalar Məcəlləsinin 18.8-ci maddəsi (əcnəbi vətəndaşın və ya vətəndaşlığı olmayan şəxsin Rusiya Federasiyasına giriş qaydasını, yaxud ölkədə qalma rejimini pozması) üzrə ittiham irəli sürülüb.

Məhkəmə bu işə baxmalıdır. Müvafiq qurumlar avqustun 25-də bloqeri Rusiya vətəndaşlığından məhrum edib. O, son 20 ildə Rusiya vətəndaşı olub.

Vəkil qeyd edib ki, E.İsayevin ailəsi onunla birlikdə Rusiyadadır. Məhkəmənin E.İsayevin Azərbaycana ekstradisiya olunması barədə qərar çıxaracağı gözlənilir.

Hələlik Azərbaycan tərəfi Elvin İsayevə qarşı hansısa iddiasının olub-olmadığı barədə açıqlama verməyib. Qeyd edək ki, Elvin İsayevin həbsinə ölkənin ən radikal müxalif kəsimi də sevinir. Onun müdafiəsilə isə yalnız xaricdə mühacir kimi yaşayan azsaylı adamlar qoşulur. Elvin İsayevin yaydığı videoları izləyənlər bilir ki, o həm də separatçılığı təbliğ edirdi. Özünün talış əsilli olduğunu əsas gətirərək, Azərbaycanda həmin millətin nümayəndələrinə güya ayrıseçkiliyin qoyulduğuna dair yalnış təbliğat aparırdı. Elvin İsayevin son vaxtlar Britaniyadan canlı yayımlar edən Qurban Məmədovla da sıx əlaqələrinin olması müşahidə edilirdi. Hətta məlumatlı şəxslər bildirirdi ki, Elvin İsayev Qurban Məmmədovun internet televiziyası üçün Rusiyada əsas vəsait toplayan şəxslərdən biri olub. Elvin İsayevin bu aqibəti başqaları üçün hansı mənanı ifadə edə bilər?

Dünya Azərbaycanlıları Konqresi mərkəzi icra aparatının rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, Elvin İsayevin fəaliyyətini yaxından izləyib: "Onun həbsinin motivləri hələ ki, bura ilə bağlı deyil. Ancaq hesab edirəm ki, Azərbaycanda ona cinayət işinin açılması ilə bağlı kifayət qədər ciddi əsaslar mövcuddur. O, birbaşa separatizmi təbliğ edirdi. Həm hakimiyyəti ən pis formada söyürdü, həm də ölkənin konstitusion quruluşuna xələl gətirə biləcək təbliğat aparırdı. Bütün bunlar Azərbaycan qanunvericiliyinə zidd olan fəaliyyətdi və hüquqi məsuliyyət yaradır. Bu bir dərs olmalıdır ki, siyasi mübarizəni etika çərçivələrdə aparmaq lazımdır. Tənqid olar, ancaq ölkənin dəyərləri və simvollarını təhqir etmək qəbul edilə bilməz. Bəziləri belə təbliğat aparır ki, güya Elvini Azərbaycanın tapşırığı əsasında Rusiyada saxlayıblar. Mən buna inanmıram. Çünki belə olsaydı, Azərbaycan hakimiyyəti xeyli əvvəl bunu edərdi. Elvin İsayev uzun müddətdir ki, blogerilik edir. Onun müdafiəçilərinin arqumenti bundan ibarətdir ki, Azərbaycan hakimiyyətini sərt tənqid etdiyi üçün bu aqibətlə üzləşməli olub. Ən maraqlısı budur ki, elə hakimiyyəti ən sərt şəkildə tənqid edənlər Elvinin həbsini alqışlayırlar. Onun çox təhlükəli, dövlətçiliyimiz üçün zərərli məxluq olduğunu bəyan edirlər. Müdafiə tərəfi çalışır ki, onun ekstradisiyası 3-cü ölkəyə olsun, yəni Azərbaycana yox. Ancaq bu mümkün deyil, çünki Elvin İsayev Rusiyanın miqrasiya qanunlarını pozaraq orda vətəndaşlıq əldə edib. Bu da o anlama gəlir ki, onu Rusiyaya hardan gəlibsə ora ekstradisiya edəcəklər.

## "Bu taledən digərləri də ibrət götürməlidir"

Hətta öz vəkilləri də məsələnin bu vəziyyətdə olduğuna dair açıqlamalar veriblər. Bunlar bilmirlər ki, geniş auditoriyaya çıxıb tanınanda insan həm də yaşadığı ölkənin əlaqədar qurumlarının nəzarətinə düşümüş olur? Gərək özünün nəyi varsa qanuni ola ki, başqalarına da irad tuta biləsən. Bu baxımdan da Elvin İsayevin həbsində heç bir siyasi motiv görmürəm. Hüquqi prosedura uyğun şəkildə bura ekstradisiya ediləndən sonra öz əməllərinə də cavab verməli olacaq. Bu taledən digərləri də ibrət götürməlidir. Heç vaxt vətənlə ədəsizcəsinə mübarizə aparmaq olmaz".

*Məhəmmədəli*
***QƏRİBLİ***

**Dünya maliyyə bazarlarında baş verənlər artıq qlobal miqyasda yeni "valyuta müharibəsi"nin başlandığını göstərir. Həmişəki kimi isə, prosesdə əsas aktivlik ABŞ və Çinə məxsusdur. ABŞ-ın bütün etirazlarına baxmayaraq, Çinin milli valyutası olan yuanı ucuzlaşdırmaqda davam etməsinin nəticələrini isə bütün dünya, o cümlədən Azərbaycan da həssaslıqla izləyir.**

# Dünyada qızışan "valyuta müharibəsi" manata inamı artırır



Çünki yaşananlar manatın gələcək məzənnəsinə də əhəmiyyətli dərəcədə təsir göstərmək iqtidarındadır.

Hazırda baş verənlər ABŞ-la Çinin "valyuta müharibəsi"ni daha da şiddətləndirəcəyini göstərir. Çünki Çin valyuğasını ucuzlaşdırır və ABŞ-ın da buna adekvat addımlar atması gözlənilir. Qeyd edək ki, Şanxay birjasında son hərrac zamanı yuanın dollara qarşı məzənnəsi 7,1425 təşkil edib. Bu da 2008-ci ildən etibarən ən aşağı həddir. ABŞ-la Çinin yeni danışıqlara başlaya biləcəyinə dair xəbərdarlıqlar da prosesə təsir göstərmir. Əksinə, yuanın bir qədər də ucuzlaşması gözlənir. Bunun ümdə səbəblərindən biri Çinin ABŞ-la ticarət savaşının dərinləşməsidir. Qeyd edək ki, ötən həftə Çin hökuməti ölkəyə idxal olunan 75 milyard dollarlıq ABŞ mallarına sentyabrın 1-dən və dekabrın 15-dən etibarən 5-10 faizlik rüsum tətbiq etmək qərarı verib. Bununla yanaşı, ABŞ soya paxlasına və neftinə 5 faizlik rüsum, avtomobillərinə isə yenidən 25 faizlik rüsum tətbiq olunacaq. Bundan sonra ABŞ prezidenti Donald Tramp 250 milyard dollarlıq Çin mallarına mövcud 25 faizlik rüsumun oktyabrın 1-dən etibarən 30 faizə, 300 milyard dollarlıq Çin idxalatına sentyabrın 1-dən tətbiq ediləcək yeni rüsumun isə 25 yox, 30 faiz həcmində təyin olunacağını açıqlayıb. Bununla yanaşı, Tramp ABŞ şirkətlərini Çindəki istehsalatı bağlamağa çağırıb. ABŞ Maliyyə Nazirliyi isə Çini "valyuta ilə manipulyasiya edən ölkə" adlandırıb. Yuanın məzənnəsinin azalması çinli ixracatçılara dünya bazarlarında qiymət üstünlüyü yaradır və ABŞ-da Çin mallarına qoyulmuş tarif hesabına yaranan ziyanı qismən yumşaldır. Çinlə Birləşmiş Ştatlar arasında ticarət müharibəsi 2018-ci ilin baharında başlanıb. O vaxt Vaşinqton bir sıra ölkələrdən, o cümlədən Çindən alüminium və polad idxalına rüsumların artırılması barədə qərar qəbul edib. "Böyük iyirmilik" ölkələrinin Buenos-Ayresdə keçirilmiş zirvə görüşündə Donald Tramp və Si Cinpin ticarət müharibəsində barışıq barədə razılığa gəlib və yeni ticarət rüsumları tətbiq edilməsini 2019-cu ilin martına qədər təxirə salmağı qərara alıblar, lakin sonrakı danışıqlar uğursuz olub. Bu fonda Çin ixracını qorumaq üçün yuanı ucuzlaşdırır. ABŞ da gələn aydan etibarən dolların ucuzlaşması üçün növbəti addım atacağını bəyan edib. Məhz bu hal "valyuta müharibəsi"nin yeni mərhələsi sayılır. Hesab edilir ki, dolların ucuzlaşması baş verərsə, dünya ölkələri onun payını ehtiyatlarında azaldacaq. Dolların daha çox qızılla əvəzlənməsi gözlənir ki, artıq bir sıra ölkələr bu istiqamətdə müvafiq addımlar atır. Xatırladaq ki, Azərbaycan da qızıl ehtiyatlarını artırır. Bu, "valyuta müharibəsi"nin mümkün mənfi nəticələrindən sığortalanmaq üçün ən yaxşı vasitə sayılır. Hazırda ölkəmizin qızıl ehtiyatları 100 tona çatır. Amma yaxın tezlikdə bu rəqəmin bir qədər də artması gözlənir. Digər tərəfdən, dolların enerji resurslarının satışında payının getdikcə azalması da ABŞ valyutası ilə bağlı daha ehtiyatlı siyasət yürüdülməsinə sövq edir.

Xatırladaq ki, ABŞ-ın dollarla təzyiq siyasəti üzündən bir sıra ölkələr enerji ehtiyatlarını digər valyutalarla satır. Bura yuan və milli valyutalar daxildir. Çin dünya neft ticarətində valyuta olaraq dolların yerini yuana vermək üçün artıq müvafiq addımlarını atıb. İran ən böyük neft tədarükçülərindən biri kimi neftini daha çox yuanla satır. Venesuela prezidenti Nikolas Maduro bəyan edib ki, ölkəsi artıq neftin qiymətini ABŞ dolları ilə deyil, Çin yuanı ilə hesablayır. Dövlət başçısının sözlərinə görə, bu addımın atılmasına səbəb ABŞ-ın ölkəsinə qarşı tətbiq etdiyi sanksiyalardır. Rusiyanın da prosesə qoşulması dolların mövqeyini əhəmiyyətli dərəcədə zəiflədəcək. Bu səbəbdən, Azərbaycan da daxil olmaqla, digər ölkələr ehtiyatlarında dolların payını azaltmağa məcburdur. Aydındır ki, qlobal miqyasda dollarla bağlı baş verənlər manata da təsirsiz ötüşməyəcək. Hesab olunur ki, Mərkəzi Bank tədbirlər görməsə, manat digər valyutalar qarşısında bahalaşacaq. Bundan əlavə, məsələnin Azərbaycanın valyuta ehtiyatlarına da təsiri var. Çünki valyuta ehtiyatlarının tərkibində dollar və avronun payı yüksəkdir. Hesab edilir ki, bu pulların daha çox hissəsi artıq qızılla əvəzlənməlidir. Yəni yaranmış vəziyyətdə Azərbaycan valyuta ehtiyatlarındakı dolların həcmi ilə bağlı siyasətini də yenidən nəzərdən keçirə bilər. Bunu artıq əksər ölkələr, məsələn, Rusiya, Çin, Türkiyə və digərləri edir. Onlar valyuta ehtiyatlarındakı dolları daha çox qızılla əvəzləyir. Düzdür, burada onu da nəzərə almaq lazımdır ki, Azərbaycan valyuta ehtyiatlarını diversifikasiya edib. Bu mənada, ABŞ və Çinin ticarət savaşının valyuta ehtiatlarımıza təsiri o qədər də qorxulu həddə olmayacaq. Amma dolların zəifləməsi ilə manatın mövqelərinin güclənməsi qaçılmaz sayılır.

Hesab edilir ki, inzibati müdaxilə olmasa, manat dollar qarşısında bahalaşacaq və ən azı dollar-manat nisbəti 1,5 həddinə düşəcək. Yəni 1 dollar üçün 1,5 manat ödəmək lazım gələcək. Lakin qeyri-neft sektorunda ixracın artırılması fonunda belə vəziyyət ölkəmiz üçün sərfəli sayılmır. Digər tərəfdən, dolların ticarət müharibəsi fonunda zəifləməsi neftin qiymətini də bahalaşdıra bilər ki, bu da Azərbaycanın valyuta gəlirlərinin artması demək olacaq. Hər halda, baş verənlər ölkəmiz tərəfindən xüsusi diqqətlə izlənir və müvafiq addımlar atılır. Yaranmış vəziyyətdə isə ölkə əhalisi artıq xarici valyutalarla müqayisədə manata daha çox üstünlük verməyə başlayıb. Manatlı yığımların artması, əhali tərəfindən valyuta alışının azalması da qeyd edilənlərin təsdiqi, milli valyutaya inamın artmasının real göstəricisidir.

***Tahir TAĞIYEV***

# Rəfsəncani: "Bütün Azərbaycanı mənə verməyə hazır idilər"

**İranın keçmiş prezidenti Əli Əkbər Haşimi Rəfsəncani "Quruculuq mətanəti" adlı kitabında 1993-cü ilin 27-28 oktyabrında baş tutmuş Bakı səfəri barədə bəhs edib. O, kitabında yazıb ki, Zəngilanın ermənilər tərəfindən işğalı zamanı Azərbaycan İrandan çox ciddi yardım istəyib.**



## *Fikrət Sadıqov: "Rəfsəncaninin bununla bağlı səsləndirdiyi fikirlər uydurmadır"*

Rəfsəncaninin iddiasına görə, guya Azərbaycan rəhbərliyi işğaldan xilas olmaq üçün bütün ölkəni İrana verməyə hazır olub: "Cənab Əliyev dedi ki, Araz çayının Zəngilan ərazisindəki hissəsi ağır erməni atəşi altındadır və əhali ölümdən qurtulmaq üçün Araz çayı vasitəsilə İrana keçir, tələfat var. Fövqəladə kömək lazımdır. Ehtimalımıza görə, bu, danışıqların əsas məzmunu ilə bağlı əsas müzakirə mövzusunun girişini qeyri-müəyyən edirdi, amma bu, həqiqət deyildi. Xəritəni gətirdilər və izah etdilər. Məlum oldu ki, Zəngilan işğal olunsa, Ermənistan sərhədindən tutmuş Parsabad şəhərinə qədər şimal sərhədimiz ermənilərin nəzarətində olacaq. Qəti təklif budur ki, onlar üçün mübarizə aparaq. Açıq şəkildə dedilər ki, biz sizə bütün Azərbaycanı veririk və biz Azərbaycanda İslam Respublikası yaratmağa hazırıq. İranın köməyi olmadan müdafiə oluna bilmərik və ermənilərin Bakıya doğru irəliləməsi imkanı var…" Daha sonra Rəfsəncani bunları deyib: "Dedim ki, bu, regional və qlobal təhdid kəsb edən çox böyük bir qərardır və onun nəticələri müxtəlif istiqamətlərdə araşdırılmalı və Tehranda buna cavab verilməlidir". Rəfsəncaninin bu iddialarının əsası yoxdur. Düzdür, Azərbaycan Zəngilanın işğalı zamanı İrandan yardım istəyib, amma bu heç də Rəfsəncaninin dediyi kimi olmayıb. Məsələ ondadır ki, Cəbrayıl rayonunun Arazboyu yaşayış məntəqələri işğal olunandan sonra Zəngilanla quru əlaqəsi kəsilib. Erməni işğalçılarının Zəngilana aramsız hücumları zamanı yeganə çıxış yolu əhalini İran vasitəsilə xilas etmək idi. Bununla bağlı Azərbaycan tərəfi İrana müraciət edib ki, Arazda suyun səviyyəsi aşağı salınsın. Ona görə ki, əhali çayı keçə bilsin. İran da buna razılıq verib. Nəticədə Zəngilan əhalisi İran ərazisi vasitəsilə xilas edilib.

*"Zəngilanın işğalı zamanı Azərbaycan dinc əhalinin xilas edilməsi ilə bağlı İrandan humanitar dəhliz istəyib"*

Maraqlıdır, bəs ekspertlər Rəfsəncaninin bu iddialarını necə dəyərləndirir? Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun fikrincə, keçmiş İran prezidentinin sözügedən fikirləri uydurmadır: "Rəfsəncaninin bununla bağlı səsləndirdiyi fikirlər uydurmadır. Azərbaycan heç vaxt öz müstəqilliyindən imtina etməyib. Hətta ən ağır dövrlərdə belə. O zaman Heydər Əliyev kimi böyük siyasətçi ölkəyə rəhbərlik edirdi. O, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində müstəsna rol oynayıb. Ona görə də deyilənlər kökündən yanlış fikirlərdir və reallığı əks etdirmir. Zəngilanın işğalı zamanı Azərbaycan dinc əhalinin xilas edilməsi ilə bağlı İrandan humanitar dəhliz istəyib. Budur məsələnin mahiyyəti. O cümlədən, Azərbaycanda nəyəsə görə islam dövləti yaratmaq gündəmdə olmayıb. Əslində Qarabağ müharibəsi zamanı İran Azərbaycanı müdafiə etməli idi. Ancaq bu baş vermədi. Bununla yanaşı, 8 may 1992-ci ildə bizim nümayəndə heyəti Tehranda olanda Şuşa işğal olundu. O zaman İran Azərbaycanla Ermənistan arasında gedən danışıqlarda vasitəçi idi. İran tərəfi buna görə Ermənistana etiraz etmədi. Bizə real kömək lazım idi. Yoxsa bizim düşmənimizlə əlbir olmaq, onunla partniyorluq münasibətləri qurmaq lazım deyildi. Nəzərə almalı idilər ki, biz müsəlman ölkəsiyik. Təəssüflər olsun ki, indinin özündə də İran Ermənistanla münasibətlərini genişləndirir ".

***Vidadi ORDAHALLI***

# Bəzi deputatlarımızın xaricdə iri biznesi barədə "jurnalist araşdırmaları" nədən reaksiyasız buraxılır...

**Məşhur "Relax" hadisəsi bir daha deputatların və bəzi məmurların biznes şəbəkəsinin mövcudluğunu təsdiqləmiş oldu. İş burasındadır ki, qanunvericilik bu kateqoriyadan olan adamlara bizneslə məşğul olmağı qadağan edir.**




## *Mehman Muradlı: "Hətta həmin əmlakların üzərinə həbs qoydurub, ölkəyə qaytarmaq da mümkündür"*

Praktika göstərir ki, belə adamlar məsuliyyətdən yayınmaq üçün əsasən bizneslərini çox yaxın adamlarının adına rəsmiləşdirirlər. "Relax" hadisəsində bu amil də üzə çıxdı və nəticədə millət vəkilinin oğlu və bir neçə qohumu barəsində həbs qətiimkan tədbiri seçildi.

Sosial şəbəkələrdə yayılan və bəzi elektron KİV-lərin təqdim etdiyi müstəqil jurnalistlərə məxsus araşdırma materiallarından görünür ki, bəzi millət vəkillərinin xarici ölkələrdə də böyük biznes şəbəkəsi var. Həmin araşdırma materialları sadəcə sözdən ibarət olsaydı, hardasa qərəzli və ya sifarişlə yazıldığı qənaətinə gələ bilərdik. Ancaq ortaya konkret sənədlər, fotolar, vergi ödəmələri, hansısa ölkədə qeydiyyatdan keçmiş firmanın məhz deputata və ya onun doğmalarına məxsus olduğunu bildirən rəsmi sənədlərin sürətləri belə təqdim edilir. Əksər hallarda bu cür materiallar millət vəkilləri tərəfindən sükutla qarşılanır. Yəni bu qədər qalmaqala və qanun pozuntusuna onlar seyrçi qalmaqla reaksiya vermiş olurlar. Çox nadir hallarda hansınınsa reaksiyası müşahidə edilir. Məsələn, bu yaxınlarda yayılan analoji məlumatla bağlı millət vəkillərindən biri bildirmişdi ki, bunların hamısı ona yox, oğluna məxsusdur. Çox cavan yaşlarında övladın birdən-birə bu qədər əmlakı xarici ölkədə necə əldə etməsi isə əlavə sualların yaranmasına gətirib çıxarır. Bu tip materiallarla bağlı millət vəkillərinin reaksiyasızlığı necə qiymətləndirilə bilər və bununla bağlı hüquqi aspektdən hansı ölçülər götürülməlidir? Hüquqşunas Mehman Muradlı qəzetimizə bildirdi ki, dediyimiz mövzuda yayılan məlumatlara o da tez-tez rast gəlir: "Haqq üçün deyim ki, sanballı araşdırmalar da olur. Ortaya ciddi faktlar qoyulur. Təbiidir ki, oğurluq üstündə yaxalanan adam bununla bağlı susmağa üstünlük verəcək. Çünki istəməz ki, səs-soraq aləmi bürüsün. Ancaq söhbət ölkədən çıxarılan külli miqdarda vəsaitdən gedir. Hansısa deputat və ya məmur o qədər cahcəlalı ancaq ölkədən pul çıxarmaqla əldə edə bilib. Bununla bağlı da bizim əlaqədar qurumlar hərəkətə keçməlidir. Bu məslədə deputat toxunulmazlığı arxasında gizlənmək də effekt verə bilməz. Məlumatların yoxlanması üçün prokurorluq həmin faktlar əsasında adıkeçən ölkələrin müvafiq qurumlarına sorğu göndərib, cavab almalıdır. Bundan sonra həmin adamlarla bağlı burda iş aparıla bilər. Reaksiya verilsə belə, bu əsas sayıla bilməz.

Hüquqi araşdırma mütləq olmalıdır. Təbiidir ki, kimsə biznesinin olduğunu açıq etiraf etməyəcək. Bunun üçün hüquqi araşdırma aparıb, ortada olan faktları həmin adamlara sübut etmək lazımdır. Hətta həmin əmlakların üzərinə həbs qoydurub, ölkəyə qaytarmaq da mümkündür".

***Məhəmmədəli QƏRİBLİ***

# Rəsmi Bakı Tehranı İrəvandan imtina vəziyyətinə gətirdi...

**Qonşu İran ətrafında yaranan vəziyyət bu gün Cənubi Qafqazda da geosiyasi və geoiqtisadi duruma ciddi şəkildə təsir göstərməkdədir. Məsələ burasındadır ki, Qərb, əsas etibarı ilə də ABŞ sanksiyalarından ciddi əziyyət çəkən İran artıq bir çox ölkələrlə, o cümlədən Qafqaz dövlətləri ilə münasibətlərini yenidən nəzərdən keçirir. Hazırda görünən budur ki, İran üçün regionda ən əhəmiyyətli ölkə Azərbaycandır.**

Çünki məhz Azərbaycanla həyata keçirilən siyasi, iqtisadi layihələr İranın inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Bu xüsusda təkcə "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizini yada salmaq kifayətdir.

Digər tərəfdən, enerji sahəsində tərəflər sıx əməkdaşlıq edir. Perspektivdə hətta İran qazının bir hissəinin "Cənub Qaz Dəhlizi" vasitəsilə dünya bazralarına çıxarılması gözlənilir. Eyni zamanda, İran ixrac məhsullarını artırmaq üçün "Şimal-Cənub" dəhlizinə xüsusi önəm verir. İranın dövlət dəmir yolu şirkətinin baş direktoru Səid Rəsuli bu dəhlizin ölkəsi üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayaraq, burada Azərbaycanın rolunu kifayət qədər yüksək qiymətləndirdiklərini də etiraf edir. Onun sözlərinə görə, hazırda Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun Gilan vilayətindən keçən hissəsində relslərin düzülməsi davam edir. O bildirib ki, sanksiyalara baxmayaraq, yolun inşası davam edir. Artıq 40 kilometr məsafədə relslər düzülüb. Rəsuli nəzərə çatdırıb ki, yolun tikintisində Azərbaycan tərəfi də iştirak edir: "Rəsmi Baki "Şimal-Cənub" dəhlizinin əsas tərkib hissəsi olan Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun inşasına 500 milyon dollar vəsait ayırıb. Bundan başqa, Azərbaycan İranın Astara şəhərində dəmir yolu vağzalının və yük terminalının tikintisində də iştirak edir". Rəsuli vurğulayır ki, İranla Azərbaycanın dəmir yolları arasında faydalı əməkdaşlıq əlaqələri mövcuddur: "Azərbaycan "Şimal-Cənub" dəhlizinin də tam olaraq formalaşmasında fəallıq göstərir. Məhz İranla Azərbaycanın dəmir yolu sahəsində əməkdaşlığı nəticəsində Asiya ilə Avropa dəmir yolu nəqliyyatı baxımından birləşəcək. Asiya ölkələri Avropaya, Avropa ölkələri isə Fars körfəzi sahillərinə və Cənub Şərqi Asiyaya çıxış əldə edəcək".

Xatırladaq ki, "Şimal-Cənub" dəhlizi ilə Asiyadan Avropaya və əks istiqamətə yüklər Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu vasitəsilə daşınacaq. Ötən ilin mart ayında yolun Qəzvin-Rəşt hissəsi istismara verilib. Rəşt-Astara hissəsində isə inşaat işləri davam edir. Qeyd edək ki, Azərbaycan üzərinə düşən öhdəliyi artıq yerinə yetirib. Azərbaycanın və İranın dəmir yollarını birləşdirəcək Astara (Azərbaycan)-Astara (İran) 8,7 kilometrlik dəmir yolu körpüsü inşa edilib və istismara verilib. Nəticədə bu gün Rusiya İrana malların ixracını məhz Astara dəmir yolu körpüsü vasitəsilə həyata keçirir. Ümumiyyətlə, Azərbaycan ərazisindən keçən 511 kilometr dəmir yolu tam hazır vəziyyətdədir. "Şimal-Cənub" dəhlizi isə İran, Hindistan, Rusiya və Azərbaycanla yanaşı, Fars körfəzi və Orta Asiya dövlətlərinin, həmçinin Çinin də marağına səbəb olub. Qeyd edək ki, Çin də bu marşrutla maraqlanıb və iqtisadi-texniki əsaslandırmadan sonra investisiya yatıracağına qərar verəcək. Çinin yaxın gələcəkdə mallarını məhz sözügedən dəhlizin Qərb marşrutu ilə dünya bazarına çıxaracağı şübhə doğurmur ki, bunun da önəmli səbəbi var. Məsələ ondan ibarətdir ki, Çinin gəmiləri Malayziyanın Malay yarımadası ilə İndoneziyanın Sumatra adası arasındakı Malakka boğazından keçərək dünya okeanına çıxırlar. Hind okeanı ilə Sakit okeanı birləşdirən bu boğaz iqtisadi baxımdan Cənub-Şərqi Asiya ölkələri üçün olduqca əhəmiyyətlidir. Hər il Malakka boğazından bu regionun müxtəlif ölkələrinə məxsus 50 mindən çox gəmi keçir. Lakin burada məskunlaşmış dəniz quldurları gəmilərə hücum edərək onları qarət edir. 2006-cı ildən başlayaraq Malakka boğazından keçən gəmilərin qarət olunması halları çoxalıb. Dəniz quldurları gəmiləri qarət etməklə yanaşı, heyət üzvlərini də girov götürərək yüksək məbləğdə pul tələb edirlər. Onu da nəzərə çatdırmaq lazımdır ki, yay aylarında Sumatra adasında baş verən meşə yanğınları nəticəsində boğazın üzəri sıx dumana bürünür və 200 metr irəlini görmək olmur. Belə vəziyyət həm qəzalara səbəb olur, həm də dəniz quldurlarını təqib etməyə imkan vermir. Bu problem Çini ciddi düşündürür. Qazaxıstan-Türkmənistan-İran dəmir yolu xətti də istifadəyə verilib. Yolun Qazaxıstan-Türkmənistan hissəsi 2013-cü ildə, Türkmənistan-İran hissəsi isə 2014-cü ildə istismara buraxılıb. Orta Asiya respublikaları üçün "Şimal-Cənub" dəhlizinin mahiyyəti ondadır ki, onlar Fars körfəzinə çıxış əldə edəcəklər. Belə vəziyyətdə İran üçün "Şimal-Cənub" dəhlizinin əhəmiyyəti daha da artır və Tehran iqtisadi problemlərindən əhəmiyyətli dərəcədə yaxa qurtarmaq üçün dəhlizin inşası istiqamətində azərbaycanla əməkdaşlığı intensivləşdirir. Bu vəziyyətdə regionda Azərbaycanın İran üçün əhəmiyyəti artır. Ekspertlər hesab edir ki, hadisələrin bu səpkidə inkişafı sonda İranın regionda Ermənistandan tədricən üz döndərməsinə gətirib çıxaracaq. Elə erməni mediası da hadisələrin qeyd olunan məcrada inkiaşfından ciddi narahatlıq keçirərək yazır ki, belə vəziyyətdə Ermənistanın regional təcridi daha da dərinləşəcək. Eyni zamanda, Ermənistan daha bir mühüm transmilli layihədən kənarda qalacaq.




"Şimal-Cənub" dəhlizinin işə düşməsi isə tranzit ölkə kimi Azərbaycanın gəlirlərini artıraraq onu iqtisadi cəhətdən daha qüdrətli dövlətə çevirəcək. Bu layihəyə, Çinlə yanaşı, böyük iqtisadiyyata malik Hindistan da xüsusi maraq göstərir. Çünki Hindistandan Finlandiyaya qədər uzunluğu 7200 kilometr olan "Şimal-Cənub" dəhlizi ilə yüklərin daşınma müddəti 2 dəfədən çox azalır. Bu da müqayisədə yüklərin 20 gün tez çatdırılması deməkdir. Dünya Ticarət Təşkilatının hesabatına görə, Hindistanın xarici ticarət dövriyyəsi 1 trilyon dollara yaxınlaşıb. Hindistan nefti, sənaye avadanlıqlarını, müxtəlif kimyəvi maddələri, dəmiri, poladı və başqa malları idxal edir. İxraca gəldikdə isə, qeyd etmək lazımdır ki, dünya bazarına çıxarılan çayın 13 faizini Hindistan ixrac edir. Dünyada qəhvə ixracına görə bu ölkə 6-cı yerdədir. Bunlardan başqa, neft-kimya məhsulları, dərman preparatları, maşınqayırma və nəqliyyat avadanlıqları, yüngül sənaye və kənd təsərrüfatı məhsulları da Hindistanın ixrac potensialına daxildir. Məhz bunlar fonunda Dehli də "Şimal-Cənub" dəhlizinə xüsusi maraq göstərir.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Dövlət başçısı kimi yox, jurnalist kimi danışan Paşinyan Qarabağ müharibəsini anbaan yaxınlaşdırır




**İşğalçı Ermənistanın sərgilədiyi mövqe üzündən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli getdikcə daha çox dalana dirənir. Ermənistan daxilində cərəyan edən hadisələr isə bu ölkədə hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Qarabağ məsələsində konstruktiv mövqe ortaya qoyulacağını ciddi sual altına alır. Belə görünür ki, yaranmış vəziyyətdə ciddi təzyiqlə üzləşməyəcəyi təqdirdə Ermənistan münaqişə ətrafında spekulyativ siyasətini davam etdirəcək.**

Təbii ki, bununla razılaşmaq niyyətində olmayan Azərbaycan məsələnin hərbi müstəvidə həlli planını reallışdırmaq məcburiyyətində qalacaq.

Hadisələrin məhz qeyd edilən səpkidə inkişaf edə biləcəyini Ermənistanda da aydın sezirlər. Məhz bu fonda rus ekspert Stanislav Tarasov vurğulayır ki, Ermənistanın Azərbaycanla məhz danışıqlar masası arxasında razılığa gəlməsi İrəvan üçün daha məqbul variantdır. O xatırladır ki, bu günlərdə ATƏT-in Kommunikasiya və Media Əlaqələri Departamenti Qarabaq münaqişəsinin sülh yolu ilə həlli üzrə danışıqlar prosesi çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünə hazırlıq barədə məlumat yayıb: "Artıq Elmar Məmmədyarov və Zöhrab Mnatsakyanın növbəti dialoqundan nəticə gözləmək lazımdır. Ən azından, Ermənistan buna çalışmalıdır. Amma təəssüf ki, bu hələ müşahidə olunmur. Elə Xankəndidəki mitinq zamanı baş nazir Nikol Paşinyanın verdiyi bəyanatlar, o cümlədən 30 il bundan əvvəl səsləndirilən "birləşmə" şüarını gündəmə gətirməsi də bunu göstərir. Bu, Paşinyan tərəfindən atılan kobud təxribat addımıdır və indiki məqamda Azərbaycan tərəfindən səsləndiriləcək bütün ittihamlar və əks bəyanatlar tam yerindədir. Biz öz gündəliyi olan Minsk Qrupu prosesində Ermənistanın da iştirak etdiyini, danışıqlar prosesinin olduğunu, "Madrid prinsipləri"nin varlığını və bu cür davam edən prosesləri bilirik. Paşinyan, Minsk Qrupundan çıxması barədə bəyan etsəydi, daha məntiqli olardı". Tarasov bildirib ki, Paşinyan öncə Ermənistanda inqilab etdi, daha sonra bəyan etdi ki, Qarabağda da inqilab baş verməlidir: "Paşinyan bununla Qarabağda rejimin qeyri-legitim olmasına işarə edib. Belə olan halda sual yaranır, Paşinyan Xankəndi və İrəvanı ayrıca nəzərdən keçirirsə, o halda Qarabağın daxili işlərinə müdaxilə etməyə ixtiyarı yoxdur. Heç olmasa müdaxilə etmədiyini göstərməlidir, lakin o, inqilabın Qarabağ və diaspor üçün olduğunu bəyan edir. Nədir, bəyəm Paşinyan Rusiyadakı erməni icması rayonlarında da inqilab həyata keçirmək istəyir? Paşinyanın hazırda kobud təxribatla məşğul olduğu aydındır. Dağlıq Qarabağ münaqişəsi təkcə Azərbaycan və Ermənistan arasında baş verən münaqişə deyil, bu münaqişə beynəlxalq format almış münaqişəyə çevrilib. Bu münaqişə yalnız Bakı və İrəvanda yox, Rusiyada, İranda, Türkiyədə və sair ölkələrdə də izlənilir. Paşinyanın kimin gözlərinə kül üfürdüyü məlum deyil. Lakin Paşinyanın gizli danışıqlar apardığına əminəm. Məmmədyarovla Mnatsakanyan görüşür, qapalı müzakirələr aparır, görüşlər davam edəcək, amma bu görüşlərdən heç bir detal açıqlanmayıb. Azərbaycan görsə ki, növbəti danışıqlarda da istənilən nəticə yoxdur, məsələnin hərbi həllinə çalışacaq. Bakı bu istiqamətdə regionda maraqlı qüvvələrlə də fəal iş aparır və nəticələr də pis alınmır".

Tarasovun sözlərinə görə, Moskvada da Paşinyanın şüurlu şəkildə vəziyyətin kəskinləşməsinə doğru getdiyini düşünürlər: "Paşinyan vəziyyətin kəskinləşdirilməsilə hansısa proseslərin qarşısını almağa çalışır. Çünki onun hakimiyyəti ağır anlar yaşayır, artıq 1 il vaxt keçməsinə baxmayaraq, heç bir nailiyyət əldə edə bilməyib. O, diasporu səfərbər etməyə çalışır. Lakin əldə edilən məlumatlara görə, ABŞ diasporu İrəvana dəstək verməyi dayandırır. Rusiyadakı erməni icması da diaspor üzrə komissarın səfərindən sonra eyni mövqedədir. Daha sonra Paşinyan Ermənistan xüsusi xidmət orqanları dünyada ən güclü olmalıdırlar, deyə təxribatçı bəyanat verir. Problem çoxdur, Paşinyan danışır, məsuliyyətini dərk etmədiyi və daşımadığı nəsə deyir. O, dövlət rəhbəridir, hər bir ifadəsinə görə məsuliyyət daşımalıdır. Amma Paşinyan publisist, jurnalist kimi çıxış edir. Məhz Bakı da bunları diqqətlə izləyir, müvafiq addımlar atmağa hazırlaşır. Ən əsası isə, ordusunu daha güclü hala gətirir. Bu da məsələnin perspektivdə hərbi həll ehtimalının yüksək olduğunu nümayiş etdirir".

Məsələyə eyni prizmadan israilli politoloq Yuri Boçarov da yanaşır. Onun sözlərinə görə, cərəyan edən proseslər göstərir ki, Ermənistan rəhbərliyi Qarabağ məsələsi ilə bağlı real dialoqa, üstəlik, hansısa taleyüklü qərarların qəbuluna hazır deyil: "Necə deyərlər, "demokratik" qüvvələrin qələbəsi və xalqın qəzəbi fonunda Nikol Paşinyanın hakimiyyətə gəlməsi Ermənistanda bütün hakimiyyət institutlarını hələ demokratikləşdirə bilməyib. Yeni seçilmiş lider öz qələbəsi ilə həddən çox adama borcludur. Buna görə də o, hər hansı bir mühüm siyasi qərarları qəbul etməzdən öncə Ermənistanın daxilində və xaricində bir çoxlarını görmək məcburiyyətindədir. Sözügedən nüfuz qruplarının maraqları bir-biri ilə o qədər ziddiyyətlidir ki, onların hamısı ilə dərhal razılığa gəlmək, çətin ki, real olsun. Buna görə də Ermənistanın baş naziri qlobal məsələləri həll etməzdən əvvəl həmin "partnyorlar" arasında seçim etməlidir. Daha doğrusu, Paşinyan yalnız bundan sonra onun sponsorlarının Dağlıq Qarabağ problemi ilə bağlı qəbul etdikləri qərarı səsləndirə bilər. Ancaq belə olan halda onun nazirləri təşkilati-hüquqi məsələləri həll etməyə və bəyanat verməyə başlayacaqlar. Hələlik isə Zöhrab Mnatsakyanın "qeyri-adi bir şey" deyəcəyini gözləməyə dəyməz".

Ekspert vurğulayır ki, Paşinyanın bir-birinə zidd bəyanatları fonunda yaxın vaxtlarda danışıqlar prosesində irəliləyiş gözləmək çətindir: "Paşinyan bütün Ermənistanı, daha doğrusu, ölkənin bütün inzibati-siyasi strukturunu sözün əsl mənasında hələlik idarə etmir. O, rəsmi hakimiyyəti ələ alıb, lakin hər an baş nazirin "qanını qaralda biləcək" bir çoxları yerlərdə qalmaqdadır. Paşinyan bəzən bir-birinə zidd bəyanatlar verməklə həm müxtəlif yerli klanları, həm də ölkədə öz maraqlarını güdən dünyadakı siyasi qüvvələri razı salmaq istəyir. Amma bu çətindir və Azərbaycan daha çox gözləmək istəmir. ATƏT-in Minsk Qrupunun fəaliyyətinin artıq fəaliyyətsiz xarakter daşıması da Bakını narazı salır. Münaqişənin həlli vacibdir. Bu gün dünyada qonşu ölkələrə sıçraya və ya bütün dünyanı alovlandıra biləcək yeni qaynar nöqtələr və lokal müharibələr kifayət qədərdir. Paralellər aparmaq istəmirəm, lakin bizim diyarlarda yazırlar ki, bir tərəfdən Fələstin muxtariyyətinin rəhbərliyinin qənaətincə, "Fələstin problemi" bir çox Yaxın Şərq ölkələrinin gündəliyindən praktiki olaraq yoxa çıxıb, digər tərəfdən, Suriya və Yəməndə gedən müharibələri və İran ətrafında münaqişənin şiddətlənməsi fonunda dünya Qəzzadan İsrailə endirilən raket zərbələrini görmür. Nəticədə İsrail öz problemlərini özü həll etməyə məcburdur. Eyni durumda Azərbaycanı da görmək olar. Bu gedişlə Azərbaycan vasitəçilər olmadan Qarabağ məsələsini həll etmək məcburiyyətində qala bilər. ABŞ, Rusiya və ümumiyyətlə, Avropa İttifaqının yeni problemləri və vəzifələri o qədərdir ki, özgə müharibəyə diqqət ayırmaq istəmirlər. Onları sözügedən münaqişəni ədalətli həll etməyə sövq etmək üçün maraqlandıracaq heç bir şey yoxdur. Məhz bu durumda Ermənistanın müvafiq addımlar atmaması savaşı təkləyir. Kənar müdaxilə olmayacağı təqdirdə isə Bakı asanlıqla savaşda istədiyi nəticələri alacaq".

Bütün bu qeyd edilənlərdən aydın olur ki, Ermənistan yaxın tezlikdə Qarabağ məsələsində istənilən addımı atmasa, Azərbaycan ərazi bütövlüyünü hərb yolu ilə bərpa etməli olacaq. Bu vəziyyətdə isə rus hərbçi ekspert Pavel Felgenhauer vurğulayır ki, Ermənistanı böyük məğlubiyyət gözləyir. O bunu ilk növbədə ordu amili ilə izah edir. Ekspert xatırladır ki, Ermənistan ordusu döyüş qabiliyyəti, hərbi texnika ilə təminat baxımından Azərbaycan ordusundan çox geridə qalır: "Artıq sirr deyil ki, Azərbaycan ordusu texnoloji cəhətdən mümkün yeni müharibəyə daha yaxşı hazırlaşıb. Ordunun sərəncamında təkcə Rusiyadan alınan yox, həm də İsraildən və digər ölkələrdən alınan müasir texnikalar var. Ona görə də, hazırki vəziyyətdə Ermənistan üçün müharibə qəbuledilməzdir. Bu müharibədə Ermənistan məğlub olmağa məhkumdur. Texnoloji qeyri-bərabərlik bunun əsas səbəblərindən biridir. Münaqişənin eskalasiyası baş versə, bu, Ermənistanın tam məğlubiyyəti ilə nəticələnəcək. Ona görə də Ermənistan danışıqlar prosesində maraqlı olmalıdır. Dağlıq Qarabağdan başqa digər 7 rayon da işğal altındadır. Uzun illərdir ki, həmin rayonların ilkin mərhələdə geri qaytarılması ilə bağlı danışıqlar gedir. Lakin bu danışıqların heç bir nəticəsi olmayıb. Ona görə də bundan sonra da danışıqlarda bu məqamın öz həllini tapmaması savaşı qaçılmaz edir".

Beləliklə, qeyd edilənlər bir daha aydın göstərir ki, Ermənistan sülh danışıqlarının nəticə verməsi üçün artıq real addımlar atmalıdır. Əks təqdirdə, ekspertlər səviyyəsində də işğalçı ölkəyə çox aydın xəbərdarlıq olunur ki, Azərbaycan tərəfindən olduqca sərt zərbələr alacaq. Bakı özü də bu istiqamətdə hazırlığını davam etdirir. Bu səbəbdən işğalçı ölkənin Qarabağ məsələsində artıq çox az zamanı var.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# "Masazır Park" şirkətində fəhlə istismarı - 35 fəhlənin pulu niyə verilmir...

**Sosial şəbəkələrdə yayılan məlumatlara görə, Abşeron rayonu "Masazır Park" Yaşayış kompleksində işləyən fəhlələr 1 il 7 aydır işlədiyi tikintidən maaşını ala bilmir. Məlumata görə, 35 nəfər fəhlə xeyli vaxtdır sözü gedən tikinti şirkəti tərəfindən aldadılır. Ötür-ötürə salıb fəhlələrin maaşları verilməyib.**

*"Ancaq bununla bağlı sanballı sübutları olmalıdır"*

***Sahib Məmmədov:** "Fəhlələrin əmək müqaviləsi olmadan işlədilməsi o demək deyil ki, onlar məhkəməyə müraciət edə bilməz"*

Bir müddət fəhlələrə 100-120 manat verib ümid veriblər, ancaq fəhlələrin tələblərinə baxmayaraq maaşları şirkət tərəfindən ödənilməyib. Fəhlələrə müxtəlif vədlər verilsə də heç biri yerinə yetirilməyib. Şikayətçilərin sözlərinə görə, "Masazır Park" Yaşayış kompleksindən onlara bildirilib ki, işlədikləri əmək haqları ay ərzində ödənləcək. Lakin üstündən 1 il 7 ay keçməsinə baxmayaraq, maaşdan heç bir xəbər yoxdur.

Tikintidə fəhlələrlə birgə çalışan, iş icraçısıYaşar Məmmədovun açıqlamasından məlum oldu ki, tikinti şirkətində özünü sədr müavini kimi təqdim edən, Vasif adlı şəxs onlara pul müqabilində mənzil söz verib. Yəni binadan hər hansı bir mənzil satışı həyata keçirilərsə, onların da maaşı ödəniləcək. Beləcə fəhlələrdə ümid yaradıblar ki, narahat olmayın. Lakin bunun da bir faydası olmayıb. Çünki bina yarımçıq olduğundan müştərilər orada mənzil almaqda maraqlı deyil. O da məlum oldu ki, "Masazır Park" şirkəti fəhlələrlə əmək müqaviləsi bağlamadan onları işlədib. Bu da onların işini bir az da çətinləşdirir.

Məsələ ilə əlaqədar bir neçə dəfə "Masazır Park" Yaşayış kompleksi ilə telefon əlaqəsi saxlamağa çalışsaq da zənglərə cavab verən olmadı. İndi 35 fəhlə qalıb çıxılmaz vəziyyətdə. Şirkət isə onların pulunu verənə oxşamır.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Vətəndaşların Əmək Hüquqları Müdafiə Liqasının sədri Sahib Məmmədovun sözlərinə görə, adıçəkilən şirkətin fəhlələri əmək müqaviləsiz işlətməsi və məvaciblərini verməməsi o demək deyil ki, şirkət məsuliyyətdən kənarda qala bilər: "Bununla bağlı fəhlələr Dövlət Əmək Müfəttişliyinə şikayət etməlidilər. DƏM bir araşdırma apara bilər və fəhlələrin orada işləməsi təstiqlənəndən sonra bir sıra tədbirlər görülə bilər. İşçilərlə əmək müqaviləsi olmadığına görə, sözügedən şirkəti cərimələyə bilər. Eyni zamanda, tikinti şirkətindən əmək haqlarının ödənilməsini tələb edə bilər. Bu zaman tikinti şirkəti əmək haqlarının ödəməkdən imtina edərsə, onda məhkəməyə müraciət edilməlidir. Ona görə də məvaciblərini ala bilməyən 35 fəhlə birinci növbədə vəkil tutmalıdır. Orada işləmələrini sübut edən dəlilləri toplamalı, onlara nə qədər əməkhaqqının verilməsini nəzərdə tutan sənəd varsa onu da dəlillərə əlavə etməlidilər. Bütün bunları sistemləşdirib məhkəməyə müraciət etmək lazımdır. Fəhlələrin əmək müqaviləsi olmadan işlədilməsi o demək deyil ki, onlar məhkəməyə müraciət edə bilməz. Fəhlələr sözügedən şirkəti buna görə məhkəməyə verə bilər. Ancaq bununla bağlı sanballı sübutları olmalıdır. Birinci sübut etməlidilər ki, "Masazır Park" Yaşayış kompleksində işləyiblər. İkinci sübut etməlidilər ki, həmin müddətdə işləyiblər. Üçüncü sübut etməlidilər ki, həmin müddətdə onlara əməkhaqqı verilməyib. Dördüncü sübut etməlidilər ki, onlara verilməli olan əməkhaqqı bu qədər olmalıdır. Bax bunları sübut edən sənədləri, səs yazıları toplayıb məhkəməyə müraciət etmək lazımdır. Çıxış yolunu bunda görürəm".



**Vidadi ORDAHALLI**

# Azərbaycanda banklar vətəndaşlara yaş həddinə görə ayrıseçkiliyə niyə son qoymur...

**Qanunvericilikdə pensiyaçılara kredit verilməsinə heç bir məhdudiyyət yoxdur. Ancaq banklar pensiya yaşında olan insanlara kredit verməkdən imtina edir. Son illərdə banklar bir çox 65 yaşından yuxarı pensiyaçılara kredit verməkdən imtina edib.**




***Fikrət Yusifov:** "Bəzi banklar belə hesab edir ki, kredit götürənin yaşı çoxdursa, bu, vəsaitin geri qaytarılması məsələsində risqlər yaradır"*

Azərbaycanda kişilərin pensiyaya çıxma həddi 65 yaşa çatdırılıb. Belə çıxır ki, karyerasını başa vurmuş insan istədikdə bankdan borc götürə bilməyəcək. Bir müddət əvvəl Xaçmaz rayonunda belə bir hadisə baş verib. Belə ki, ticarət mərkəzlərindən birində 70 yaşlı Xaliddin İbrahimova 800 manat dəyərində məişət texnikasını almaq üçün kredit açmaqdan imtina ediblər. Dükanda olan bank nümayəndəsi şifahi şəkildə müştəriyə 65 yaşından yuxarı şəxslərə kredit verməyi qadağan edən qaydanın mövcudluğunu bildirib. İbrahimov bir neçə gün sonra soyuducunu kreditlə götürə bilib, lakin alqı-satqı onun qohumunun adına sənədləşdirilib. Ümumilikdə belə hallar çoxdur. Banklar hər vasitə ilə yaşı 65-dən yuxarı olan şəxslərə kredit verməkdən yayınır. Hansı ki, qeyd olunduğu kimi, qanunvericilikdə belə bir məhdudiyyətin tətbiq olunması nəzərdə tutulmayıb. Onu da qeyd edək ki, bank yaş və ya cins səbəbilə müştəriyə kredit verməkdən imtina edərsə, Maliyyə Bazarlarına Nəzarət Palatasına şikayət etmək olar. Çünki bu addım Azərbaycan Respublikası Konstitusiyasının birbaşa pozulmasıdır. Bu halda hətta məhkəməyə də müraciət etmək olar. Bütün hallarda, bankların yaş həddinə görə vətəndaşları ayrıseçkiliyə məruz qoymasını ekspertlər necə dəyərləndirir?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, bankların 65 yaşdan yuxarı vətəndaşlara kredit verməkdən imtina etməsinin heç bir qanuni əsası yoxdur: "Qanunvericilikdə bununla bağlı məhdudiyyət yoxdursa, o zaman bankların 65 yaşdan yuxarı vətəndaşlara kredit verməkdən imtina etməsi düzgün deyil. Bəzi banklar belə hesab edir ki, kredit götürənin yaşı çoxdursa, bu, vəsaitin geri qaytarılması məsələsində risklər yaradır. Əslində bankların bu cür yanaşması düzgün deyil. Çünki yaşından asılı olmayaraq, bankdan kredit götürən hər bir şəxsin başına iş gələ bilər.

*"Qanunvericilikdə bununla bağlı məhdudiyyət yoxdursa, o zaman bankların 65 yaşdan yuxarı vətəndaşlara kredit verməkdən imtina etməsi düzgün deyil"*

Yaşından asılı olmayaraq insan nədənsə yüz faiz sığortalanmayıb. Ona görə də bankların bu ayrıseçkiliyini düzgün hesab etmirəm. Yaşından asılı olmayaraq vətəndaşlara kredit verilməlidir. Elə vətəndaş var ki, yüksək pensiya alır və ödəmə qabiliyyəti yüksəkdir. Nəzərə almaq lazımdır ki, pensiyaçılar aldığı təqaüdə uyğun kredit götürür. Ona görə də bütün bunları banklar nəzərə almalıdır".

**Vidadi ORDAHALLI**

**Son illər Bakı şəhərində müşahidə edilən tikinti bumu çərçivəsində çoxsaylı çoxmərtəbəli yaşayış evləri, inzibati binalar inşa edilib. Ancaq diqqət etsək görərik ki, sözügedən binlar inşa edilərlkən çox vaxt tikinti normaları gözlənilmir. Necə gəldi binalar bir-birinə yaxın tikilir.**

# Bakıda çoxmərtəbəli binalar tikintisində ağlasığmaz normasızlıq - binalar arasında məsafə hətta 40-50 santimetr...



## *Rəsul Cahangirli: "Belə binalarda yanğın baş verərsə, heç bir yanğınsöndürən maşın əraziyə daxil ola bilməyəcək"*

Görürsən ki, iki yeni çoxmərtəbəli yaşayış binasının arasında bina inşa olunub. Ancaq iki bina arasında inşa edilən tikili ilə qonşu binalar arasında məsafə olduqca azdır. Belə ki, binalar arasında təxminən 40-50 santimetr məsafə var. Belə binaların hansı tikinti normalarına əsasən inşa edildiyi aydın deyil. Məsələn, belə binalardan biri də Ziya Bünyadov prospektində tikilib.

Açıq-aydın görünür ki, bina tikilərkən heç bir tikinti normalarına məhəl qoyulmayıb. Halbuki, hər bir mənzil normal havalanmalı, günəş işığı mənzillərə paralel düşməli, nəmişlik və rütubət kimi problem yaranmamalıdır. Binanın hər bir tərəfinə günəş şüası düşməlidir. Bu baxımdan binalar arasında məsafənin olması mütləqdir. İstənilən tikinti zamanı bu normalar qorunmalıdır. Onu da qeyd edək ki, qanun 1 hektar ərazidə 1 bina tikməyə icazə verir. Bir bina da təxminən 15-20 min kvadrat metrdir. Bundan başqa, bir binanın hündürlüyü 30 metrdirsə, ona yanaşı olan binalarla arasında məsafə minimum 45 metr olmalıdır. Bu, təhlükəsizlik və fövqəladə hallar baxımından vacibdir.

Binalar o qədər bir-birinə yaxın tikilib ki, sabah hansısa bina qəzalı olsa və onun sökülməsi zərurəti ortaya çıxarsa, o zaman problemlər yaranacaq. Qəzalı binanın söküntüsü zamanı digər sağlam bina da zərər görəcək. Yaxud da hansısa yanğın və digər fövqəlada hal baş verə, müdaxilə etmək imkanları məhdudlaşır.

Bütün bu deyilənlərin fonunda, binaların bir-birinə həddən artıq yaxın tikilməsinin nə kimi təhlükəsi var?

## *"Nəticədə çoxsaylı insan tələfatı risqi böyükdür"*

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, binaların bir-birinə çox yaxın tikilməsi təhlükəlidir: "Bina tikilərkən, təəssüf ki, müvafiq tələblərə riayət olunmur. Binalar arasında bəlli bir məsafə qoyulmalıdır. Ancaq bir sıra binalar arasında məsafə 3-4 metrdir. Elə binalar var ki, onların arasında məsafə hətta bir neçə santimetrlə ölçülür. Belə binalarda yanğın baş verərsə, heç bir yanğınsöndürən maşın əraziyə daxil ola bilməyəcək. Nəticədə çoxsaylı insan tələfatı risqi böyükdür. O cümlədən, maddi itkilər də böyük olacaq. Həmçinin, digər fövqəlada vəziyyətlər yarananda müdaxilə imkanları məhdud olur. Odur ki, bina layihələndiriləndə tələblərə riayət olunmalıdır. Binalar şəhərsalmanın qaydasına uyğun tikilməlidir. Binalar arasındakı məsafə yan-yana binalarının hündürlüklərinin cəmi qədər olmalıdır. Minimum isə ikisinin hündürlüyünün cəminin yarısı qədər olmalıdır. Əgər evlərin arasında yol varsa, yolun eni ən azı iki metr olmalıdır. Yoldan sonra isə iki metr səki olmalıdır. Bütün bunlara riayət olunarsa, həmin evlərin arasında 20 metrə qədər məsafə yaranır. Ancaq paytaxtdakı binaların əksəriyyətində bu qaydalara riayət olunmur. Belə binalara gedən qaz xətləri yerin altı yox, üzəri ilə aparılmalıdır. Həmçinin müvafiq qurumlar qaz, elektrik xətlərini tez-tez yoxlamalıdırlar".

***Vidadi ORDAHALLI***

**İnsanlar, eləcə də bütün canlılar üçün oksigen bir həyat mənbəyidir. Bu baxımdan meşələr Yer kürəsinin ən qiymətli sərvəti hesab olunur. Çünki planetimizin əsas oksigen mənbəyi məhz meşələrdir. Buna görə də insan həyatını meşələrsiz təsəvvür etmək qeyri-mümkündür.**

# Quba meşələri turistlər tərəfindən zibilxanaya çevrilir...



## *Elçin Rüstəmov: "Meşəlik ərazilərə tullantıların atılması bəzən xoşagəlməz halların baş qaldırmasına səbəb olur"*

Onu da qeyd edək ki, meşələrin faydası təkcə havaya buraxdığı oksigenlə məhdudlaşmır. Meşələr həm də torpaqda su balansını nizama salır, kəskin iqlim dəyişikliyinin qarşısını alır, güclü küləklərin təsirini zəiflədir, sovrulan qum kütlələrinin hərəkətini saxlayır, sellərin və torpaq sürüşməsinin qarşısını alır. Bundan başqa, meşələr qar örtüyünün bərabər yayılması və tədricən əriməsinə imkan yaradır, buxarlanmanı zəiflədir, qrunt sularının səviyyəsini endirir. Meşələr həmçinin havanı tozdan, avtomobil və sənaye müəssisələrinin buraxdığı zərərli maddələri təmizləməkdə güclü filtr rolunu oynayır.

Bəllidir ki, yay mövsümü ərəfəsində ölkə vətəndaşları istirahət üçün dağlıq rayonlara üz tuturlar. Onlar istirahət vaxtlarının böyük qismini meşələrdə keçirməyə üstünlük verirlər.

İstər yerli, istərsə də xarici turistlər bölgələrdə istirahət etməyə üstünlük verir. Xüsusən Qubanın Qəçrəş bölgəsi həftəsonları istirahət üçün ideal yerlərdən hesab edilir. Paytaxt Bakıya yaxın ərazidə yerləşməsi minlərlə turistin sözügedən əraziyə səfər etməsinə şərait yaradır. Yerli və xarici turistlərin istirahət üçün seçdiyi ərazilərdən biri də Qəçrəş meşəsidir. Təəssüf ki, özünəməxsus təbiəti ilə seçilən, havası və gözəlliyi ilə turistləri cəlb edən Qəçrəş meşəsi hazırda məişət tullantıları üçün ayrılan poliqona çevrilir. Qəçrəşə gələn qonaqlar arasında turizm obyektlərində istirahət edənlərlə yanaşı təbiət qoynunda, yəni meşəlik ərazidə süfrə açıb dincələnlər də az deyil. Təəssüf doğuran məqam ondan ibarətdir ki, təbiət qonunda istirahət edən şəxslər yedikləri və içdiklərinin qalıqlarını özləri ilə deyil, elə ordaca qoyub yollarına davam edirlər. Qəçrəş meşəsində olan istənilən şəxs içki şüşələri, tərəvəz qabıqları, konfet kağızları və müxtəlif plastik tullantıların ağacların altında və yol kənarlarında olduğunu müşahidə edər.

## *"Ərazinin zibillənməsi meşə üçün təhlükəli olmaqla yanaşı, gələn xarici turistlərin ölkəmiz haqqında düşüncəsinə təsir edir"*

Turizm obyektlərinin sahibləri isə yalnız öz ərazilərini təmiz saxlayırlar. Quba və Qəçrəş meşəsində olan tullantılar onu deməyə əsas verir ki, bu ərazilərdə uzun müddətdir iməcilik keçirilmir. Həmçinin, həmin ərazidə zibil qabı belə yoxdur. Belə olan halda istirahət edən şəxslər əllərində olan tullantını yol kənarına və ya ağacların ətrafına atır.

Məsələ ilə bağlı fikir bildirən turizm eksperti Elçin Rüstəmov bizimlə söhbətində bildirdi ki, turistik ərazilərin hər birində mütləq yerlər təyin edilərək, tullantı qutuları quraşdırılmalı və "Bura zibil atmayın" kimi məlumat lövhələri yerləşdirilməlidir: "Ərazinin zibillənməsi meşə üçün təhlükəli olmaqla yanaşı, gələn xarici turistlərin ölkəmiz haqqında düşüncəsinə də təsir edir. Meşələr hansı rayonun ərazisindədirsə, oranın məsul şəxsləri təmizliyə xüsusi diqqət yetirməlidir. Turistlərin sıx olduğu ərazilərdə insanların istirahətinə mane olmayacaq şəkildə tullantı qabları yerləşdirilməlidir".

Həmsöhbətimiz onu da vurğuladı ki, meşəlik ərazilərə tullantıların atılması bəzən xoşagəlməz halların baş qaldırmasına səbəb olur. Kimsə siqaret çəkir və onu söndürmədən otluq əraziyə atır. O zaman həmin ərazidə yanğın qeydə alınır. Bu kimi halların baş verməməsi üçün o cür yerlərə xüsusi nəzarət tətbiq olunmalıdır.

***Günel CƏLİLOVA***

# Xarici kübar qadınların "yaşam qoçu" saxlamaq adəti Bakıda da yayılır...

## Hətta universitet müəllimləri "yaşam qoçu" saxlayır

**Müasir cəmiyyətimizdə elə "yenilik"lərlə qarşılaşırıq ki, bu bizim yalnız təəccübümüzə səbəb olur. Elə hallar var ki, onlar başqa cəmiyyətlərə, o cəmiyyətlərin qadınlarına xasdır və bu onlarda sözün həqiqi mənasında effektiv alınır. Bu gün Azərbaycan qadınları ilə müqayisədə Avropa, Rusiya, Türkiyə, ABŞ qadınlarının həyata baxışı, dünyagörüşü, bütövlükdə isə həyat tərzi fərqlidir.**

Lakin bizim bir qisim qadınlarımız özlərini onlara bənzətməyə çalışır, necə deyərlər, onları təqlid etməyə cəhd göstərirlər. Xüsusən də sosial cəhətdən yüksək təminatlı xanımlar, kübar sayılan qadınlar özlərini onlara oxşatmaqda davam edirlər.

Bir sıra ölkələrdə, əsasən də Türkiyədə və digər ölkələrdə geniş yayılan "yaşam qoçu" xidmətindən Azərbaycanda da istifadə edən qadınlar peyda olub. Həmin ölkədə "yaşam qoçu"ndan normal şəkildə istifadə edilsə də, bunu bizim kübar qadınlar primitiv şəkildə həyata keçirirlər. Son zamanlar bəzi kübar qadınlar tanınmış idmançıları, fiziki cəhətdən güclü olan tanınmış şəxsləri muzdla özlərinə "yaşam qoçu" seçir. "Yaşam "qoçu bu qadınların ayrılmaz bir parçasına çevrilir. Onlar "yaşam qoçu" olmadan bir addım belə atmaq istəmirlər.

Onu da qeyd edək ki, Azərbaycanda "yaşam qoçu" saxlayan qadınların böyük əksəriyyəti onlardan sözün həqiqi mənasında hər cür istifadə edir. Yəni "yaşam qoçu"nu pul qarşılığında tutduqları üçün idmandan tutmuş hətta yatağa qədər onlar qadınları müşayiət edir. Hətta "yaşam qoçu" ilə gün keçirən, həyatını davam etdirən qadınlar ona bir psixoloq kimi də yanaşırlar.

### "Yaşam qoçu" nədir?

Sağlam qidalanma və düzgün həyat tərzi üzrə mütəxəssis Məhsəti Hüseynova qeyd edir ki, son dövrlərdə "yaşam qoçu" ifadəsinə tez-tez rast gəlirik və bəzən də insanların əksəriyyəti bunun mahiyyətini anlamır. O hesab edir ki, bizim insanlar "yaşam qoçu"nun gördüyü işlərin nədən ibarət olduğundan xəbərsizdir. Bir çox hallarda isə "yaşam qoçu" psixoloqla qarışdırılır. Bəs "yaşam qoçu" kimdir və niyə məhz qoç? Ümumiyyətlə, "yaşam koçluğu nədir? Bu haqda məlumatınız yoxdursa, bu yazı tam sizin üçündür. "Yaşam qoçluğu" müştərinin istək, hədəf və məqsədlərini müəyyənləşdirərək şəxsi uğur və inkişafını dəstəkləmək məqsədi daşıyır. Buna müştərinin şəxsi inkişafı, münasibətləri və insanlarla ünsiyyəti, karyera məsələləri, ictimai həyatı və hobbiləri daxildir. "Yaşam qoçluğu" psixoterapiya deyil, bütün məsələlərdə hədəflərin yaradılması və həyata keçirilməsi istiqamətində onunla aparılan seans peşəkar yardım əlaqəsi olaraq qəbul edilir. Əgər müştəriyə psixoloji yardım lazım olarsa, o zaman ona müvafiq mütəxəssisə müraciət etmək üçün təlimat verilir. Lakin əksər hallarda uzun müddət psixoloq tərəfindən müalicə alsanız da və ya psixiloqlardan çox yardım görsəniz də, hələ də bir çox məsələlərdə problemlərin həll olmadığını hiss edirsiniz və ya həll etməkdə çətinlik çəkirsinizsə, bu zaman sizin köməyinizə bir "yaşam qoçu" gələ bilər".

### "Yaşam qoçu" psixoloqdurmu?

Ekspert "yaşam qoçu"nun psixoloqdan 5 cəhətə görə fərqləndiyini qeyd edir:

1. Müalicə prosesini arxeoloji qazıntı işi olaraq təsəvvür etsək, "yaşam qoçluğunu memarlıq işinə bənzədə bilərik. Psixoloji müalicə zamanı müraciət edən şəxs özünü tapmaq üçün keçmişində dərindən qazıntılar apararaq əldə etdiyi hər şeyi sıralamağa çalışır, "yaşam qoçluğunda" isə həmin şəxs seans zamanı öyrəndiklərini bugünkü həyatında mövcud olan gerçəklərdən alır və onu inkişaf etdirir. Ona daşımağa məcbur olduğu yüklə necə yaşaya biləcəyi öyrədilir. Təbii ki, müalicənin də, "yaşam qoçluğu" seansının da özünəməxsus faydaları var, lakin "yaşam qoçluğu" vasitəsilə siz danışmaqdan daha çox iş görəcəyinizdən əmin ola bilərsiniz. Çünki onunla həyatınızı və gələcəyinizi dəyişdirmək üçün radikal, həyəcanlı və əyləncəli addımlar ata bilirsiniz.

2. "Yaşam qoçluğunda" dəqiqliklə həyatdan nə istədiyinizi və hədəflərinizi öyrənirsiniz. Həyatda xoşbəxt deyilsinizsə, nəyin çatışmadığını anlayırsınız. Bunu dəyişdirməyin yeganə yolu olan əskikliyin nə olduğunu dəqiqləşdirirsiniz. Bir "yaşam qoçu" ilə nə istədiyinizi müəyyənləşdirə və onu tapandan sonra bunu necə aradan qaldıracağınız barədə planlar qura bilirsiniz.

3. "Yaşam qoçluğu" seanslarında istədiyinizi əldə etmək üçün, hədəfinizə çatmaq üçün addım-addım nə edəcəyiniz haqqında planlar qurursunuz. Dəqiqliklə istəyinizi müəyyənləşdirdikdən sonra onu necə əldə edə biləcəyinizi də öyrənirsiniz. Danışdıqca ortaya çıxan bir çox fikirlərlə birlikdə ilk addımı atmalı olursunuz və bir də görürsünüz ki, istəyinizə bir addım da yaxınlaşmısınız. Daha sonra isə bir-birinin ardınca işlər zamanla həll olur və addımlarınızı planlayaraq hədəfinizə nail olursunuz.

4. "Yaşam qoçluğu" seansında siz daha məsuliyyətli olursunuz. "Yaşam qoçluğu"nun ən önəmli müvəffəqiyyətlərindən biri də "yaşam qoçu"nun müştərini gördüyü işlər barədə hesabat vere bilməyə istiqamətləndirməsidir. Bir hədəf müəyyənləşdirildikdə onun həyata keçməsi üçün mütəmadi olaraq "yaşam qoçunuzla" ünsiyyətdə olmalısınız və bu sizi daha məsuliyyətli edir. Məsələn, həftədə 3 gün piyada gəzmək istəyirsinizsə, lakin bunu keçmiş təcrübələrinizdə bacarmamısınızsa, "yaşam qoçunuz" həftənin 3 günü sizinlə bu barədə öyrənmək üçün məlumat istəyə bilər. Siz də bəzən sırf ona yalan danışmamaq üçün bu piyada gəzintini edirsiniz. Və nəticədə bunu bacardığınız üçün özünüzü yaxşı hiss edirsiniz.

5. Daha maraqlı və vacib məqamlardan biri də odur ki, "yaşam qoçluğunda" sürətli şəkildə konkret nəticələr əldə etdiyinizi görürsünüz. Bəli, sürətli nəticələr! "Yaşam qoçluğu"na aid ən möhtəşəm nüans da elə budur! Nəticəni görmək üçün aylarla, illərlə gözləmək məcburiyyətində qalmırsınız. Dəyişmək istədiyiniz şey daha tez baş verir. Problemləri müəyyənləşdirdikdə və onu həll etmək üçün hədəflərinizi bildikdə bu işi gerçəkləşdirmək tamamilə sizin əlinizdə olur. Və "yaşam qoçluğu" məhz elə bu işi etməyinizə imkan verən bir vasitədir.



*Leyla Məmmədəliyeva: "Yaşam qoçu" xidməti, ola bilsin ki, hansısa ölkələrdə aidiyyəti üzrə tətbiq edilir, amma bizim qadınlar bu xidmətdən olduqca primitiv şəkildə yararlanırlar"*

*Fatimə Hacıbəyli: "Əslində, Azərbaycanda yaşam qoçu seçilənlərin bir çoxu o qadınlara kübar davranışları, gözəl nitq bacarığını, iş görüşlərində aparılan danışıqların qaydalarını, arıqlamaq yollarını, idman etməyin üsullarını öyrətmir, onların vəzifələri tamamilə başqadır"*

### Bakıda "yaşam qoçu" təlim proqramları...

Ekspertlər qeyd edirlər ki, artıq Türkiyədə və digər ölkələrdə olduğu kimi, Bakıda da "yaşam qoçu" təlim proqramı mövcuddur. Bu təlimlərə qatılıb sertifikat alan insanlar istər indiki iş həyatlarında yeni məlumatlar qazanıb həyatlarına davam edər, istərsə də fərdi şəkildə şəxsi həyatlarında "həyat qoçluğu"ndan yararlana bilərlər. Proqramın məqsədi şəxsin bu andakı mövcud vəziyyətdən hədəflədiyi vəziyyətə çatanadək "qoçun" formalaşdırdığı proqram çərçivəsində - şəxsin həyat sahələri, karyera, iş, maliyyə, səhiyyə, ailə, ictimai həyat və s. sahələrdə planlarını formalaşdırmaqdır. Ekspertlər deyir ki, "yaşam qoçları fərdlərin hədəflərinə daha sürətli və təsirli surətdə çatmasına köməkçi olmaq məqsədilə professional xidmət verir. "Yaşam qoçu" insanın həyatda necə xoşbəxt ola biləcəyi ilə maraqlanır, adamın özünə daha çox zaman ayırmasına və gələcəyi ilə bağlı daha dəqiq plan qurmasına kömək edir.

"Yaşam qoçu" adamın öz potensialını kəşf etmək, daxili inkişafını, həyat məqsədini, hədəflərini və olmaq istədiyi nöqtəyə gəlib çatmaq üçün lazımlı yol xəritəsini çəkməyə kömək edir və bu yolda getməsinə dəstək verir.

"Yaşam qoçu"nun funksiyaları barədə mütəxəssis rəyləri aydındır. Onlar "qoçun" insan həyatında oynadığı roldan əsaslandırılmış şəkildə danışırlar. Bununla belə, mütəxəssislər hesab edir ki, Azərbaycan qadınları "qoçun" xidmətlərindən istifadə edərkən ifrata varırlar.

### "Bakıda imkanlı, kübar xanımların bir çoxunun yanında "yaşam qoçu" görürük"

Ədəbiyyatşünas alim Leyla Məmmədəliyeva bizimlə söhbətində bildirdi ki, bu gün Azərbaycanda imkanlı qadınların çoxunun yanında "yaşam qoçu" görmək olar. O vurğuladı ki, "yaşam qoçları" cüssəli, idmançı görkəmli, yaxud idmanın müxtəlif növləri ilə məşğul olan insanlardır. İlk baxışdan onların sürücü və ya cangüdən olduğunu zənn edirsən, sonra isə onların hərəkətlərini izlədikdə adam təəccüblənməyə bilmir. "Bu gün Bakıda imkanlı, kübar xanımların bir çoxunun yanında "yaşam qoçu" görürük. Hətta universitet müəllimələrinin də bəziləri "yaşam qoçu" saxlayır. Doğrudur, onlar, cəmiyyət tərəfindən yaxşı qarşılanmadığı üçün, "yaşam qoçu" seçdikləri idmançıları "sürücü" kimi təqdim edirlər. Amma onların davranışlarını müşahidə etdikdə bu "qoçun" bütün işlərində onlarla birgə olduğunu görürük. "Yaşam qoçu, guya ki, o xanımlara idman öyrədir, dieta qaydalarını başa salır, danışıq, hərəkət, davranış, biznes, işgüzar məsələləri anladır. "Yaşam qoçu" xidməti, ola bilsin ki, hansısa ölkələrdə aidiyyəti üzrə tətbiq edilir, amma bizim qadınlar bu xidmətdən olduqca primitiv şəkildə yararlanırlar. Muzdla tutulan "qoç" qadının bütün işlərində onun yanında olur. Əlbəttə, burada əxlaqi nöqteyi-nəzərdən şübhələr də yox deyil. Təəssüf ki, "yaşam qoçu"ndan başqa məqsədlə istifadə edən qadınlar da yox deyil. Bir idmançı nə qədər savadlı, dünyagörüşlü, bütün kübar qaydalarını incəliyinə qədər bilə bilər? Xaricdə "yaşam qoçu" xüsusi təlim görmüş insanlar olur, onlar həqiqətən də qadınlara yardım edir. Bizdə isə, bildiyim qədər, "yaşam qoçları"nın çox az hissəsi təlimlərdə iştirak edib, qalanları isə fiziki cəhətdən güclü, yaraşıqlı olan idmançılardır. Nəzərə alsaq ki, idmançıların da bir çoxu o qədər savadlı olmur, bu halda onlar necə "yaşam qoçu" ola bilərlər?"

L.Məmmədəliyeva hesab edir ki, Azərbaycan cəmiyyətinə, əxlaqına və dünyagörüşünə yad olan bu kimi xidmət istiqamətləri cəmiyyətdə anormal qarşılanır. Xüsusən də ziyalılar bu kimi hallara yaxşı baxmır. O qeyd etdi ki, hazırda ölkəmizdə kifayət qədər peşəkar dietoloqlar, psixoloqlar, eləcə də yüksək səviyyədə təmin olunmuş idman zalları var, xanımlar çox az vəsait xərcləməklə o xidmətlərdən yayarlana bilərlər.

### "Guya ki, "yaşam qoçu" olmasa, bizim bəzi kübar qadınlar həyatlarını davam etdirə, arıqlaya, düzgün davranış, danışıq, nitq qaydalarına yiyələnə bilməzlər"

"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli də "yaşam qoçu" xidmətindən Azərbaycan qadınlarının aidiyyəti üzrə yararlanmadığını deyir. "Yaşam qoçu" bizim cəmiyyətdə yeni bir məsələdir. Bəzi imkanlı qadınlar Türkiyədəki qadınlar kimi özlərinə "yaşam qoçu" tuturlar. Bu "yaşam qoçu" onların əvəzinə bütün işləri görür və hətta o qadınlara sürücülük belə edirlər. "Yaşam qoçu"nun öz sahibindən bir addım uzaqlaşmağa ixtiyarı yoxdur. O hər zaman sahibinin yanında olur. "Yaşam qoçluğu"ndan bəzi imkanlı qadınlarımız çox qaba və primitiv şəkildə yararlanırlar. "Yaşam qoçu" seçilən idmançı oğlanlar əksər hallarda o qadınlarla tamam başqa mübasibətdə olur, lakin qadınlar onları cəmiyyətə başqa cür təqdim edir. Guya ki, "yaşam qoçu" olmasa, bizim bəzi kübar qadınlar həyatlarını davam etdirə, arıqlaya, düzgün davranış, danışıq, nitq qaydalarına yiyələnə bilməzlər. Əslində, Azərbaycanda "yaşam qoçu" seçilənlərin bir çoxu o qadınlara kübar davranışları, gözəl nitq bacarığını, iş görüşlərində aparılan danışıqların qaydalarını, arıqlamaq yollarını, idman etməyin üsullarını öyrətmir, onların vəzifələri tamamilə başqadır"-deyə F.Hacıbəyli qeyd etdi.

***Leyla QARAXANLI***

# Azərbaycan universitetləri xarici ölkələrdə niyə filiallar açmır...

*İlqar Orucov: "Azərbaycan universitetlərinin xarici ölkələrdə öz filiallarını açması üçün bu sahədə ciddi işlər görməli, verdikləri təhsilin səviyyəsini beynəlxalq standartlara çatdırılmalıdır"*

**Bu gün Azərbaycanda Rusiya və digər ölkələrin nüfuzlu universitetlərinin filialları fəaliyyət göstərir. Bu filiallarda azərbaycanlı tələbələr təhsil alır. Dünya təcrübəsində bir ölkənin ali məktəblərinin digər ölkələrdə filiallarının yaradılması təcrübəsi var. Lakin indiyə qədər Azərbaycan universitetlərinin xarici ölkələrdə filialları yaradılmayıb.**

Halbuki bizim universitetlərin də nüfuzu, verdiyi təhsilin səviyyəsi imkan verir ki, ali məktəblərimiz xarici ölkələrdə öz filiallarını yaratsınlar.

Təxminən iki il əvvəl Azərbaycan Dövlət Pedoqoji Universitetin (ADPU) Gürcüstanda filialının yaradılacağı ilə bağlı xəbərlər yayılsa da, hələ də bu istiqamətdə real addımlar atılmayıb. ADPU-nun Gürcüstan filialının yaradılması təşəbbüsündə olanlar belə bir fikir irəli sürürdülər ki, bu ali məktəbin fililalı Gürcüstanda açılarsa bu ölkədəki Azərbaycandilli məktəblərin kadr problemi birdəfəlik həll edilə bilər.

Azərbaycan Dövlət Tibb Universitet, Bakı Dövlət Universiteti, Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Pedoqoji Universiteti, eləcə də ölkəmizdə fəaliyyət göstərən ali məktəblər xarici ölkələrdə filiallarını hansı səbəbdən yaratmırlar? Bu işin reallaşdırılması üçün ali təhsil qanunvericiliyində hansısa bir məhdudiyyətlər varmı?

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov bizimlə söhbətində bildirdi ki, Azərbaycanda zaman-zaman, xüsusən də ölkəmiz dövlət müstəilliyi əldə etdikdən sonra xarici ali məktəblərin filialları açılıb. "Vaxtilə bu filiallar adı olub özü olmayan ali məktəblərə məxsus idi. Keçən dövlərdə müəyyən işbazlar əhalinin məlumatsızlığından istifadə edib bu filialları açıb pul qazanırdılar. Çox təəssüflər olsun ki, bu istiqamətdə bir sıra neqativ hallarla qarşılaşdıq. Bunun nəticəsində də ortaya xeyli saxta diplomlar çıxdı və bu Təhsil Nazirliyinin keçirdiyi monitorinqlər zamanı daha açıq şəkildə özünü göstərdi. Hətta həmin saxta diplomlular bizim təhsil sisteminə də nüfuz etmişdilər. Elə müəllimlər vardı ki, onlar saxta diplomlarla fəaliyyət göstərirdilər. Artıq bu problem arxada qalıb. Son illər isə Azərbaycanda daha nüfuzlu ali məktəblərin filialları açılıb. Məsələn, ölkəmizdə Lomonosov adına Moskva Dövlət Universitetinin filialı fəaliyyət göstərir, Seçenov adına Tibb Akademiyasının filialı yaradılıb. Eyni zamanda da Fransa - Azərbaycan Universitetinin yaradılması kimi nümunələr bizim üçün çox faydalıdır. Bu bizim ali təhsil sistemində müsbət təsirlərə malik məsələlərdir, bu faktor peşəkar kadr hazırlığında ciddi rol oynamaqdadır. Bu kimi ali məktəblərin filiallarının Azərbaycanda açılması müsbət hadisədir. O ki, qaldı Azərbaycan universitetlərinin xarici ölkələrdə öz filiallarını yaratmamasına bunun olduqca ciddi səbəbləri var. Hansı ali təhsil müəssisəsinin xaricdə filialı yaradılır? O ali təhsil müəssisəsinin ki, o bütün dünyada tanınır, brendə çevirilib. Tutalım, Şərqi Avropa və digər uzaq ölkələrdə bizim ali məktəblər öz filiallarını açmaq istəyirlər, amma onlar bütün parametrlərə cavab verməlidirlər. Bizim ali məktəblər hələ ki, dünyada öz sözünü deyə bilməyib və bu səbəbdən də onlar öz filiallarını yarada bilmirlər. Bu addımı o ali məktəb ata bilər ki, onun diplomu dünyada tanınsın, reytinqi yüksək olsun, qəbul edilsin. Amma çox təəssüf ki, Azərbaycan universitetlərinin dünya reytinqlərində ümumiyyətlə adları yoxdur. Bir vaxtlar Xəzər Universiteti hansısa birliyə daxil olmuşdu. O da əslində təhsilin səviyyəsi ilə deyil, daha çox istinadlarla bağlı idi. Son məlumata görə, Bakı Dövlət Universitetinin adı hansısa birlikdə var. Ancaq bütün bunlar onu göstərir ki, bizim ali təhsil müəssisələrimizin, universitetlərimizin verdiyi təhsil dünyanın aparıcı ali məktəblərinin verdiyi təhsilin səviyyəsindən xeyli geri qalır. Düşünürəm ki, bu istiqamətdə çox ciddi işlər görülməlidir. Əgər biz ölkənin intellektual inkişafından danışırıqsa birmənalı olaraq deyə bilərik ki, əslində Azərbaycanda elm və təhsil ölkənin inkişafından xeyli geri qalır və ölkə rəhbərliyinin həyata keçirdiyi islahatlar fonunda elm, təhsil öz sözünü deyə bilmir"-deyə İ.Orucov qeyd etdi.

İ.Orucovun fikrincə, Azərbaycan ali məktəbləri xarici ölkələrdə o zaman öz filiallarını yarada bilər ki, onlar beynəlxalq reytinqlərdə yer alsınlar. O, hesab edir ki, Azərbaycan ali məktəblərinin xarici ölkələrdə filiallarının açılmasına nail olmaq üçün ciddi işlər görülməlidir. "Azərbaycan universitetlərinin xarici ölkələrdə öz filiallarını açması üçün bu sahədə ciddi işlər görməli, verdikləri təhsilin səviyyəsini beynəlxalq standartlara çatdırılmalıdır. Ali məktəblərimizin səviyyəsi o dərəcədə inkişaf etməlidir ki, onların verdikləri diplomlar bütün dünyada qəbul edilsin, yetişdirdikləri kadrlar dünya əmək bazarında rəqabətə davamlı olsunlar. Ancaq ümid edirəm ki, gələcəkdə Azərbaycan ali məktəbləri xarici ölkələrdə öz filiallarını yarada biləcəklər və onların verdikləri diplomlar beynəlxalq aləmdə qəbul ediləcək, bu ali məktəblərin yetişdirdikləri kadrlar dünyada rəqabətə davamlı kadrlar kimi qəbul olunacaq.

**O zaman xarici ölkələrdə Azərbaycan universitetlərinin filiallarının yaradılması mümkün olacaq və bizim ali məktəblərin filialları ölkəmizin təhsil brendi kimi xaricdə fəaliyyət göstərəcək. Amma nə qədər ali təhsil müəssisələrimiz bu tələblərə cavab vermir universitetlərimizin xarici ölkələrdə filiallarının yaradılmasından danışmaq hələ tezdir" - deyə İ.Orucov vurğuladı.**

*İradə SARIYEVA*



*"Bizim ali məktəblər hələ ki, dünyada öz sözünü deyə bilməyib və bu səbəbdən də onlar öz filiallarını yarada bilmirlər"*

# Bakı muzeylərini kimlər ziyarət edir...

**Bakıda fəaliyyət göstərən mədəniyyət ocaqları, xüsusən də müxtəlif profilli muzeylər paytaxtımıza gələn turistlər üçün də maraq kəsb etməlidir. Muzeylər öz işini o səviyyədə qurmalıdır ki, ziyarətçiləri yalnız məktəblilər, tələbələr deyil, həm də xarici turistlər olsun. Yay mövsümünün başa çatmasına bir neçə həftə qalıb.**

Yay boyu da, demək olar ki, həm paytaxt, həm də bölgə muzeyləri fəaliyyət göstərib. Bildirək ki, hazırda paytaxt muzeylərinin bir çoxu dövlət tərəfindən yüksək səviyyədə təmir edilib, lazımı inventarlarla təmin olunub. Bir sözlə, bu məkanlarda ziyarətçilər üçün hər cür şərait yaradılıb. Bəs ziyarətçilər necə, muzeylərə gedirmi? Bu müddət ərzində muzeylərimizin qapısını kimlər açıb, onların ziyarətçiləri olubmu?

Mövzu ilə əlaqədar bir neçə muzeylə əlaqə saxladıq. Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar Mədəniyyət İşçisi Alla Bayramova bizimlə söhbətində bildirdi ki, muzeyi ziyarət edənlər sırasında həm yerli, həm də xarici qonaqlar çox olur. A.Bayramovanın sözlərinə görə, Bakının ev sahibliyi ilə keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində muzeyin ziyarətçilərinin sayında kifayət qədər artım olub. O qeyd etdi ki, 43-cü sessiya ilə bağlı muzeydə silsilə tədbirlər təşkil edilib və bu da muzeyə gələnlərin sayına müsbət mənada təsir göstərib. "Bizim muzeyə gələnlərin sayı kifayət qədər çoxdur. UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində də bir sıra tədbirlər keçirdik. Həmin zaman muzeyimizə həm turistlər, həm də xarici mütəxəssislər gəldilər, bizim ekspozisiyanı maraqla izlədilər, sərgilərimizlə tanış oldular. Musiqi Mədəniyyəti muzeyi ziyarətçilər üçün hər zaman maraqlıdır. Onu da deyim ki, UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası zamanı muzeyimizə 300 nəfərdən artıq ziyarətçi gəlib, sonrakı həftələrdə isə 150-yə yaxın turist bilet alaraq muzeyimizi ziyarət edib. Demək istəyirəm ki, xarici turistlər bizim muzeyə böyük maraq göstərir və teztez ziyarətçilər sırasında olurlar"-deyə muzey direktoru bildirdi.

Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya elmi fond şöbəsinin kiçik elmi işçisi Aida İsmayılova isə "Bakı-Xəbər"ə bildirdi ki, hazırda Tarix Muzeyində təmir-bərpa işləri getdiyi üçün muzey bağlıdır. Muzeyin açılışı olduqdan sonra 2020-ci ildə Milli Azərbaycan Tarixi Muzeyinin 100 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər keçiriləcəyini deyən A.İsmayılovanın sözlərinə görə, bu zaman muzey öz qapılarını həm yerli, həm də xarici qonaqların üzünə açacaq: "Hazırda Milli Azərbaycan Tarixi Muzeyində əsaslı təmir-bərpa işləri aparıldığı üçün muzey bağlıdır. Muzeyimiz ziyarətçiləri gələn ildən qəbul edəcək".

Azərbaycan İstiqlal Muzeyi ilə də əlaqə saxladıq. Muzeyin elmi-kütləvi iş şöbəsinin müdiri Sədi Mirseyiblinin bildirdiyinə görə, İstiqlal Muzeyini hər ay ən azı 300-350 nəfər tamaşaçı ziyarət edir. "Mövsümün xarakterinə uyğun olaraq muzey ziyarətçilərinin sayında dəyişikliklər olur. Məsələn, orta və ali məktəblərdə dərslər başlayandan sonra muzeyimizə gələnlərin sayı daha çox olur, şagirdlər, tələbələr kütləvi olaraq İstiqlal Muzeyini ziyarət edirlər. Ancaq yay tətili zamanı şagirdlər, tələbələr muzeyimizə elə də çox gəlmir. Onların əvəzində muzeyimizə gələn xarici turistlərin sayında kifayət qədər artım var. Ay ərzində muzeyimizi 300-350 nəfər turist ziyarət edir. Qonaqlar arasında xarici mütəxəssislər də olur, turistlər də. Bir müddət əvvəl Avstriyanın Krems Universitetindən muzeyşünas mütəxəssis də muzeyimizi ziyarət edib. Biz onunla təmsil etdiyi müəssisə ilə mütamadi əlaqədə olmaq barədə də danışıqlar aparmışıq".

S.Mirseyibli bildirdi ki, Azərbaycan İstiqlal Muzeyi ziyarətçi sarıdan heç bir problem yaşamır. Bununla belə, şöbə müdiri bildirdi ki, muzeyə daha çox ziyarətçinin cəlb edilməsi üçün xüsusi işlər görülür. Əsası 1919-cu ildə Azərbaycan Xalq Cumhuriyyəti tərəfindən qoyulan İstiqlal Muzeyinin bu il 100 yaşının tamam olduğunu deyən müsahibimizin sözlərinə görə, bununla bağlı muzeydə bir sıra tədbirlər keçiriləcək və o tədbirlər çərçivəsində də muzey yeni ziyarətçilər cəlb edə biləcək. "Bu gün ay ərzində muzeyimizə 300-350 turist gəlirsə, gələcəkdə 10 minlərlə, 100 minlərlə ziyarətçiyə nail olmağı hədəfləmişik. Vaxt gələcək ki, bizim də muzeyə Avropanın qabaqcıl muzeylərində olduğu kimi 10 minlərlə ziyarətçi gələcək. Bunun üçün işlər görürük. Hər gün muzeyin qapısından içəri həm yerli, həm də xarici ziyarətçilər daxil olur. Sevinirəm ki, artıq tamaşaçıları muzeyə cəlb etməyə başlayırıq. Bu gün muzey işinin təbliği sahəsində böyük işlər görülür, maarifçilik tədbirləri həyata keçirilir. Bu təbliğatın nəticəsində də biz ziyarətçilər qazanırıq.

Eyni zamanda da biz öz flayerlərimizi çap etmişik və bu il Bakıda keçirilən Formula-1 Azərbaycan Qran Prisi ərəfəsində həmin flayerləri əməkdaşlarımız xarici qonaqlara, tursitlərə payladılar. Hesab edirəm ki, bu da müsbət nəticələr verir. Bundan başqa, bizim muzey turizm marşurutlarına da salınıb. Biz ölkədə fəaliyyət göstərən 5 turizm şirkəti ilə əməkdaşlıq sənədi imzalamışıq, onlar xarici və yerli turistləri muzeyimizə cəlb edirlər. Turizm qurumlarının xəttilə də muzeyimizi ziyarət edənlər çoxdur. Elə bu yaxınlarda Almaniyadan böyük bir turist qrupu Azərbaycan İstiqlal Muzeyini ziyarət etdilər. Orta məktəblərlə də əməkdaşlıq müqavilələri imzalamışıq, şagirdlər muzeydə keçirilən açıq dərslərdə iştirak edirlər"-deyə müsahibimiz bildirdi.



***Alla Bayramova:** "UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası zamanı muzeyimizə 300 nəfərdən artıq ziyarətçi gəlib, sonrakı həftələrdə isə 150-yə yaxın turist bilet alaraq muzeyimizi ziyarət edib"*

***Aida İsmayılova:** "Hazırda Milli Azərbaycan Tarixi Muzeyində əsaslı təmir-bərpa işləri aparıldığı üçün muzey bağlıdır"*

***Sədi Mirseyibli:** "Bu gün ay ərzində muzeyimizə 300-350 turist gəlirsə, gələcəkdə 10 minlərlə, 100 minlərlə ziyarətçiyə nail olmağı hədəfləmişik"*

***İradə SARIYEVA***

# Azərbaycanlı kişilər də estetik əməliyyatlar "xəstəliyinə" tutulur...

**Elm və texnologiya inkişaf etdikcə insanların ətrafa və özünə müdaxilə formaları həm genişlənir, həm də inkişaf edir. Yer üzündə insan tükənmədikcə, insan ağlı dayanmadıqca, texnologiya daim irəliləyəcək, insan həmişə öndəki hədəfə çatmağa çalışacaq, təkamül prosesinə nöqtə qoyulmayacaq.**



## *Aynura Həsənova: "Qadınlarla yanaşı, kişilər də plastik əməliyyat etdirməyə maraqlıdır"*

İnsan indi az qala Yaradanla yarışır, oqarnizm üzərində cürbəcür əməliyyatlar aparır. 10 il öncə ürək, beyin cərrahiyyəsi bizə möcüzə kimi görünsə də günümüzdə bu cür əməliyyatlar sıradan hadisə kimi dəyərləndirilir. İndi nəinki daxili orqanların köçürülməsi, hətta insana yeni əl-ayaq, üz köçürülməsi də gerçəkləşdirilir. Təbii ki, bu cür əməliyyatların reallaşdırılması elmin inkişafı, insanlığın başarısıdır.

Statistikaya görə plastik əməliyyatlar daha çox ABŞ-da həyata keçirilir. İl ərzində orta hesabla 14 milyon amerikalı plastik əməliyyat etdirir. Dövrümüzdə daha cox zərif cinsin nümayəndələrinin üstünlük verdiyi bu cür əməliyyatlardan ilk dəfə istifadə edənlər kişilər olub. Müharibə dövründə üzlərində çapıqlar olan kişilər bu üsulla qüsurlarını gizlətməyə çalışıblar. Elə bunun nəticəsində də müasir cərrahiyyənin yeni üsulları yaranıb.

Müasir dövrdə də estetik əməliyyatdan istifadə edən kişiləri sayı qadınlar qədər çoxdur. Güclü cinsin nümayəndələri daha çox burun formalarını dəyişdirmək, artıq piylərdən azad olmaq, üzlərindəki qırışları aradan qaldırmaq üçün estetik əməliyyata müraciət edirlər. Amma bu heç də kişilərin qadınlardan çox əməliyyat etdirdiyi anlamına gəlmir. Gözəllik üçün qadınlar qarşı cinsdən daha çox əməliyyat stoluna uzanırlar. Kişilər daha çox plastik əməliyyatın bir qədər fərqli və nadir növündən istifadə edirlər. Kişilər daha çox burun əyriliyinin düzəldilməsi, artıq piylərin götürülməsi, sifət quruluşunun daha yaxşı formada dəyişdirilməsi və ən maraqlısı cinsini dəyişdirmək üşün müraciət edənlərdə az deyil.

Həkim, ekspert Aynura Həsənova "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, son illə müqayisədə plastik əməliyyat üçün müraciət edənlərin sayı artıb. Qadınlarla yanaşı, kişilərdə plastik əməliyyat etdirməyə maraqlıdır: "Kişilərin estetik əməliyyatlar üçün müraciət sayında vəziyyətə gəldikdə isə, burada da göstəricilər yüksəlib. Onlar daha çox kəpçə qulaqlıq və yaxud da ginikomastiya kimi problemin, eləcə də üzdə olan çapıq və qırışların aradan qaldırılması, burun daxili estetik görünüşün düzəldilməsi, aşırı piylənmədən yaxa qurtarmaq üçün müraciət edirlər. Faizlə müqayisə etsək kişilərin müraciət etmə sayları artıb. Əvvəllər kişilər daha çox burun əyriliyinin düzəldilməsi üçün müraciət edirdilərsə ancaq son zamanlar piylərdən qurtulmaq üçün azad olmaq istəyən bəylərin sayı üstünlük təşkil edir. Hətta süd vəzisi əməliyyatı etdirmək istəyən kişilər də var"

*"Əvvəllər kişilər daha çox burun əyriliyinin düzəldilməsi üçün müraciət edirdilərsə ancaq son zamanlar piylərdən qurtulmaq istəyən bəylərin sayı üstünlük təşkil edir"*

Həmsöhbətimizin sözlərinə görə, qadınlar kimi kişilər də doqaqlarının həcmini böyütmək üçün gellərdən istifadə edirlər. Normal oriyentasiyası olan, yəni cinsi azlığa mənsub olmayan kişilər də dodaqlarını böyüdürlər: "Dodaqların böyüdülməsi üçün müxtəlif gellərdən istifadə olunur. Gellər tez və gec sorulan olur. Təbii gellər bir neçə aydan bir ilə qədər olan müddətdə orqanizmdən tamamilə sorulub xaric edilir. Bununla yanaşı, botoksdan istifadən edən kişilərin sayı az deyil".

Onun fikrincə, plastik əməliyyat üçün müraciət edən kişilərin sayının artması bu sahədə informasiyanın çoxalması, eləcə də kişilər arasında bununla bağlı psixoloji maneələrin aradan qalxması ilə bağlıdır: "Artıq kimsə, öz üz quruluşundan narazıdırsa, bunu dəyişməkdən utanmır. Bununda səbəbi plastik əməliyyat etdirən kişilərin sayının demək olar ki, qadınlarla bərabər olmasıdır. Düzdür, daha çox şou-biznes sahəsində çalışan kişilər daha çox plastik əməliyyata müraciət edir. Ancaq bununla yanaşı, ciddi sahələrdə çalışanlar da sərbəst şəkildə plastik əməliyyat masasına uzanırlar".

**Günel CƏLİLOVA**

# Azərbaycanda erkən yaşda fahişəliyə cəlb edilənlərin sayı artır

**Zərif cinsin nümayəndələri bəzən taleyin acı üzü ilə rastlaşır. Elə qadınlar var ki, müəyyən səbəblərdən günlərini isti yuvasında keçirməklə deyil, tinlərdə, küçələrdə müştəri gözləməklə həyat sürürlər. Acınacaqlı məqam ondan ibarətdir ki, fahişəliyə cəlb olunanlar arasında yetkinlik yaşında olan qızlar da var. Açıqlanan statistik rəqəmlərə əsasən, yetkinlik yaşında fahişəliyə cəlb olunanların sayı artıb.**



## *Könül Vaqifqızı: "Azyaşlı qızların fahişəliklə məşğul olmaları onların sağlamlığında problem yaranmasına səbəb olur"*

Yetkinlik yaşında olan qızların fahişəliyə cəlb olunması barədə danışan psixoloq Könül Vaqifqızı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, fahişəliyə cəlb edilənlər arasında gənclərin sayı çoxluq təşkil edir: "İnsan alverinin qurbanı olan yeniyetmə qızların əksəriyyəti uğursuz ailələrdən çıxan, savadsız, dünyagörüşü az olanlardır. Qadın alveri ilə məşğul olan şəxslər onları asılı vəziyyətə salmaq üçün müxtəlif yollardan istifadə edirlər. Aldatma və ya güc tətbiq edərək oğurlama, öz gənc ailə üzvlərini satmaq üçün valideynlərə, qohumlara və himayədarlara sövqedici təkliflər, məsələn, yaxşı işlə təmin olunma, həyat səviyyəsinin yaxşılaşdırılması, inkişaf etmiş ölkələrdə yaşamaq imkanı, nəhayət, dostluq, məhəbbət və ya evlənmə kimi yalançı vədlər bu sıradadır".

Psixoloq hesab edir ki, yeniyetmə qızların pis yola düşməsinin səbəbi onlara ailələri tərəfindən lazımi diqqətin göstərilməməsidir: "Bəzən o qızlar özlərindən çox böyük şəxslə evlənməyə məcbur edilir. Və ya ailəsi tərəfindən şiddətə məruz qaldığı üşün yaşadığı evi tərk etməli olur. Çarəsiz vəziyyətdə qalan məktəbli qız yaşamaq üçün ilk əvvəl ona isti münasibət göstərən şəxsə və ya şəxslərə sığınır. Təbii ki, o qızların sonrakı taleyi heç də yaxşı olmur".

*"Yeniyetmə qızların pis yola düşməsinin səbəbi onlara ailələri tərəfindən lazımi diqqətin göstərilməməsidir"*

K.Vaqifqızı onu da əlavə etdi ki, Azərbaycanda qadınların insan alverçilərinin toruna düşmələrinin bir sıra səbəbləri var: "Bunlardan ən çox istifadə edilәni təhsil almaq, nikaha girmək adı ilə də xaricə aparılmaqdır. İlk baxışdan qanuna uyğun şəkildə qeydiyyata alınıb xaricə göndərilən qadını isə iş əvəzinə gizli bordellər gözləyir. Beləliklə, dil bilməyən, qanun və beynəlxalq hüquq normalarından baş çıxarmayanlar insan alverçilərinin əlində alətə çevrilir. Faktlar onu da göstərir ki, qurbana çevrilmiş azərbaycanlı qadınların əksəriyyəti rayonlardandır. Səbəb isə həmin bölgə sakinlərinin məlumatsız olmasıdır".

Psixoloq qeyd etdi ki, 14-16 yaşlı qızlara bu şəkildə tələbatın olması böyük bəladır: "Birincisi, bu uşaqlar həmyaşıdları kimi məktəbdə olmalıdırlar. İkincisi, azyaşlı qızların fahişəliklə məşğul olmaları ciddi sağlamlıq problemləri ortaya çıxara bilər. Digər tərəfdən, bu tendensiya onların həmyaşıdlarının da buna meyllənməsinə səbəb olar. Əgər bunun qarşısı alınmasa, bir müddət sonra azyaşlı qızlar düşünəcəklər ki, yaxşı geyinib-kecinmək üçük fahişəliklə məşğul olmaq lazımdır.

**Günel CƏLİLOVA**

№ 150 (4048) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

28 AVQUST 2019-cu il

www.baki-xeber.com

## "Nar" 4G istifadəçilərinin sayı 2 dəfə artıb

**LTE texnologiyalı yeni baza stansiyaları quraşdırmaqla ölkənin ən geniş 4G şəbəkəsinə malik "Nar"ın 4G istifadəçilərinin sayı sürətlə artmaqdadır. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə "Nar"ın 4G xidmətindən yararlananların sayı 96% artaraq 740 minə çatıb. Bununla da,mobil operatorun hər üç abunəçisindən biri aktiv 4G internetindən istifadə edir.**

"Nar"-ın 4G abunəçilərinin sayının artmasına ölkə ərazisində yeni baza stansiyalarının quraşdırılması,mobil operatorun təqdim etdiyi paketlər və tariflər, eləcədə 4G smartfon penetrasiyasının artımı təsir edib. Qeyd edək ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə "Nar"ın smartfon istifadəçilərinin sayı 17% çoxalıb.

"Nar" 4G xidmətini təkcə Bakı və Abşeron ərazisində deyil, regionlarda, şəhər və rayon mərkəzlərində də təqdim edir.Aparılan şəbəkə təkmilləşmə işlərinin nəticəsi olaraq, 53 bölgə mərkəzi 4G şəbəkəsi ilə təmin edilib. Hazırda "Nar"ın 4G şəbəksi ölkə əhalisinin 78%-dən çoxunu əhatə edir. Yaxın vaxtlarda isə bu göstəricinin 97%-ə çatdırılması planlaşdırılır.

Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib.Nar" şəbəkəsi hazırda ölkə əhalisinin 97,5 %-ni əhatə edir və 8000-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

## Elan

Aqrolizinq ASC-nin Şəki regional nümayəndəliyinə məxsus TC-5050 markalı, şassi nömrəsi 559758007, dövlət nömrə nişanı 55 K 178, SR-2045 markalı, şassi nömrəsi 561495, dövlət nömrə nişanı 55 K-178, SR-2035 markalı, şassi nömrəsi 557127, dövlət nömrə nişanı 10 H 147 olan kombaynların texniki pasporu itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri C.Hacıbəyov küçəsi ev 64, mənzil 24-də qeydiyyatda olan Pirvəliyev Asif Vaqif oğlunun adına Bakı Şəhər İcra Hakimiyyətinin 12 may 2008-ci il 243 nömrəli sərəncamı ilə verilmiş order itdiyi üçün etibarsız sayılır.

Zülfüqarova Təranə İbrahim qızının adına Bakı şəhəri Suraxanı rayonu Yeni Günəşli bina 30, ev 2 ünvanın 072802 nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Fərmanova Xədicə Nuru qızının adına Bakı şəhəri Abşeron rayonu Xırdalan qəsəbəsi 27-ci məhəllə, bina 2 b mənzil 72 ünvanının 022391 nömrəli çıxarış itdiyi üçün etibarsız sayılır.

Əliyev Mirzəbala İmamverdi oğluna məxsus Bakı şəhəri Türkan qəsəbəsində yerləşən №265 bağın (0.12 ha) №15635 müqavilə itdiyi üçün etibarsız sayılır.

Əlimuradova Mazadə Xələf qızına məxsus Quba rayon Rustov kəndində yerləşən torpaq sahəsinin JN-114, kod 30321018 Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

## "Azercell"in yay boyu davam edən "Rəqəmsal Dünya Bölgələrdə" layihəsi Gəncədə yekunlaşdı

**Azərbaycanın lider mobil operatoru "Azercell Telekom"un iyul ayından başlayaraq "Rəqəmsal Dünya Bölgələrdə" şüarı altında ölkəmizin müxtəlif regionlarında həyata keçirdiyi layihə öz yekun sədasını avqustun 26-da qədim paytaxtımız Gəncə şəhərindən yayımladı.**

Xatırladaq ki, bütün Azərbaycanı yeni bağlantı erasına hazırlayan "Azercell Telekom" özünün 4G şəbəkəsini gücləndirərək və genişləndirərək son yarım ildə ölkə əhalisini əhatəsində 86.2%, coğrafi ərazi əhatə dairəsində isə 61.4% yüksəlişə nail oldu. Həmçinin, gündəlik LTE data istifadəsində 49.6%, LTE yükləmə və ötürmə sürətində isə 16%-dək yüksəliş qeydə alınıb. Hazırda Bakı və Abşeron da daxil olmaqla, ölkənin 60-a yaxın bölgəsi "Azercell"in 4G şəbəkəsinin əhatə dairəsində olub və bu rəqəm gündən-günə yüksəlməkdə davam edəcək.

Əsas hədəfi fəaliyyət göstərdiyi sahədə meydana gələn texnoloji trendləri hamı üçün əlçatan etmək olan "Azercell Telekom" iyul ayının 29-dan etibarən Gəncə də daxil olmaqla Naxçıvan, Ordubad, Şərur, Quba, Qusar, Xaçmaz, Sumqayıt, İsmayıllı, Şamaxı, Qəbələ, Göyçay, Şəki, Zaqatala, Bərdə, Cocuq Mərcanlı kəndi, Mingəçevir, Yevlax, Lənkəran, Qazax, Tovuz, Şəmkir bölgələrində baş tutan "Rəqəmsal Dünya Bölgələrdə" layihəsi çərçivəsində keçirilən tədbirlərdə 130 000-ə yaxın insanı bir araya topladı .

Digər bölgələrdə olduğu kimi, Gəncədə də keçirilən əyləncəli tədbir öz ətrafına 20 000-dən çox şəhər sakinini topladı. Əhali tərəfindən böyük maraqla qarşılanan tədbirlərdə müasir interaktiv əyləncələr və intellektual oyunlargeniş yer aldı. Bununla yanaşı, budəfəki tədbirəİnnovasiyalar Agentliyinin startapçısı, "CustomAR" şirkətindən Fərid Davudov "Yüksəklik" oyunu ilə qatıldı . Təşkil edilən müsabiqə və oyunların iştirakçılarına "Azercell" tərəfindən müxtəlif hədiyyələr təqdim edildi. Layihə çərçivəsində iştirakçılar mobil qurğuların texniki imkanları, texnoloji yenilikləri insan həyatınınecə rahatlaşdıra biləcəyi haqda məlumatlandırıldı.

Qeyd edək ki, axşam saatlarında keçirilən genişmiqyaslı əyləncəli proqramla yanaşı, bu səfər də cəmiyyətə qayğı və sosial məsuliyyəti hədəf tutaraq ölkənin ikinci ən böyük şəhəri olan Gəncədə yerləşən SOS Uşaq Kəndi, qaçqın və məcburi köçkün düşərgələri, eləcə də, Gəncə şəhər Uşaq Evinin sakinlərini əhatə etdi. Belə ki, "Azercell"in dəstəyilə fəaliyyət göstərən "Mobil Göz" və "Mobil Diş" klinikaları Gəncə SOS Uşaq Kəndində 70-dən çox uşağı müayinədən keçirmiş və ilkin müalicələr aparmışlar. Kəndin balaca sakinlərinə, həmçinin, Azercell-dən məktəb ləvazimatları və hədiyyələr də paylanmışdır.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan "Regional İnkişaf" İctimai Birliyi ilə birgə "Azercell"in nümayəndə heyəti, həm də, Gəncədə məskunlaşan Xocalı və Kəlbəcərdən olan məcburi köçkün ailələrini də ziyarət etmiş, onlara da öz hədiyyələrini təqdim etmişdir. Layihənin sosial məsuliyyət təşəbbüsləri Gəncədə yerləşən Uşaq Evini də əhatə edərək, yeni tədris ili ərəfəsində 70 uşağı yeni məktəb ləvazimatları ilə sevindirdi.

Beləliklə, ölkənin ikinci ən böyük şəhəri olan Gəncədə keçirilən tədbirlə mobil operator müxtəlif regionlarda Azərbaycan əhalisinin rəqəmsal dünyanın yenilikləri ilə tanış olmasına, isti yay aylarında innovativ həllər vasitəsilə əyləndirilməsinə və sosial qayğıya ehtiyacı olan sakinkərin rifahının yüksəldilməsinəyönəlik tədbirlər silsiləsinə yekun vurmuş oldu.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Refleksiya, hisslərə qapılmaq pis nəticələr verə bilər. Sizə təsir etmək istəyən insanın sözlərinə uymayın, vədlərinə aldanmayın. Ən müxtəlif, hətta gözlənilməz mənbələrdən informasiya əldə edə bilərsiniz.



**Buğa** - Maliyyə məsələləri ilə bağlı qayğılarınız arta bilər. İrəliyə doğru hərəkətinizi əngəlləmək istəyən insanların qarşısından geri çəkilməyn. Yaxın gələcəklə bağlı planlarınızı yaxşı tanımadığınız insanlarla bölüşməyin.



**Əkizlər** - Yaxın gələcəklə bağlı strategiyanı hazırlamaq üçün münasib zamandır. Emosiyalarınıza hakim olun, soyuqqanlı davranın. Vəziyyəti təhlil edərək problemlərin həlli yollarını arayın. Dəqiq plan hazırlayın.



**Xərçəng** - Planlaşdırdığınızdan artıq maliyyə vəsaiti xərcləməkdən çəkinin. Kənar şəxslərin problemlərini həll etməli olacaqsınız. Cərimə və ya cəza istisna deyil. Ehtiyatlı davranın. Sükan arxasında sayıq olun.



**Şir** - Yaşanan situasiya planlara ciddi dəyişikliklər tələb edir. Qəfil yaranmış problemləri dərhal həll etməyə çalışın. Çətinliklərin həllini təxirə salmayın, əsla ertələməyin. Dost və ya qohumları yardıma çağıra bilərsiniz.



**Qız** - Günün ilk yarısından etibarən aktiv çalışsanız, yaxşı nəticələrə nail ola bilərsiniz. Problemlərin həllində orijinal metodları seçin. Rutinlikdən uzaqlaşın, başqalarını təkrarlamayın.



**Tərəzi** - Maraqlandığınız işə, xoşladığınız məşğuliyyətə vaxt ayırmaq üçün münasib zamandır. Yaşama fəlsəfi yanaşmayın. Qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün bütün vasitələrdən istifadə edə bilərsiniz.



**Əqrəb** - Baş verən olayları yanlış anlamayın. Hadisələri olduğu kimi qəbul edin. Situasiya yaşamın məcrasını kəskin şəkildə dəyişə bilər. Yeni tanışlıqlara can atmayın. Belə cəhdlərdə pozitiv heç nə yoxdur.



**Oxatan** - Yaxın ətrafınızdakı insanlarla normal əlaqələr qurmağa çalışın. Haqqınızda deyilənlərə diqqətlə qulaq asın. Yeni tanışlıqlar üçün yaxşı zamandır. Dostlarla söhbətlərdə səmimi, tərəfdaşlarla müzakirələrdə sayıq olun.



**Oğlaq** - Situasiya planlarınızdan da yaxşı ola bilər. Ən çətin işlərin öhdəsindən gələ biləcəksiniz. Əlverişli şəraitdən yararlanmağı bacarın. Şansı əldən verməyin. İntuisiyanıza güvənə bilərsiniz.



**Dolça** - Günün ilk yarısında mövcud problemlərin həllinə başlayın. Rutin işlər sizi yora bilər. Geri çəkilməyin. Əyləncə və ya istirahəti unudun. Təcili həllini tələb edən məsələlər var.



**Balıqlar** - İnformasiya axtarışı və yeni məlumatların əldə olunması üçün əlverişli zaman deyil. Dəyərli heç nə tapa bilməyəcəksiniz. Cari işlərlə məşğul olun. Rutinlikdən qaçmayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Avtomobillərin olmadığı kurort şəhəri...

**Almaniyanın Şimal dənizi akvatoriyasında bu ölkənin tərkibinə daxil olan 6 adadan biri də Yust adasıdır. Onu bəzən Friz adası da adlandırırlar.**

Yust "Aşağı Saksoniya dayaz dəniz sahəsi" milli parkının ərazisində yerləşir. "AZƏRTAC"ın bu kiçik arayışında almanların və əcnəbi turistlərin sevimli istirahət məkanlarından biri olan bu ada haqqında məlumat verilir. Məsələ orasındadır ki, bu adada avtomobillər olmadığından sakitliyi sevən turistlər burada əsl cənnətə düşürlər. Maraqlıdır ki, hətta at faytonları belə adada piyadaların sürətinə uyğun hərəkət etməlidir. Hər il Yust adasında 130 mindən çox turist təxminən iki həftə müddətində istirahət edir. Adanın maksimum eni 1 kilometrdir. Bu unikal landşaft Şimal dənizinin digər kiçik adaları ilə birlikdə UNESKO-nun təbiət abidələrinin Dünya İrsi siyahısına daxil edilib. Bu regionun digər dəniz kurortlarında da avtomobil nəqliyyatının hərəkəti qadağan edilib və ya məhdudlaşdırılıb. Onların arasında Baltrum, Gelqoland, Langeoq, Şpikeroq və Vangeroq adaları var. Bir sözlə, əgər siz gərgin əmək fəaliyyətindən sonra Almaniyanın rahat guşəsinə çəkilərək dincəlmək istəyirsinizsə, onda Yust adası sizin üçün ideal istirahət məkanıdır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.